HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 03 (693) ■ 22 yanvar 2014 www.vergiler.az Qiyməti: 40 qəp.

# Prezident İlham Əliyev şəhidlərin xatirəsini yad etmişdir

*Qanlı 20 Yanvar hadisələrindən 24 il keçir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də - ümumxalq hüzn günündə 20 Yanvar şəhidlərinin xatirəsini yad etmişdir.*



1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olmuşdur. İyirmi dörd il əvvəl yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun qoşun birləşmələri Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbərliyinin ermənilərə havadarlığından hiddətlənən, Bakının küçələrinə və meydanlarına çıxaraq buna öz qəti etirazını bildirən geniş xalq kütlələrinə qarşı hərbi əməliyyatlara başladı. Doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək, şəhidlik zirvəsinə ucalmışlar.

Keçmiş sovet hərb maşınının Azərbaycanda törətdiyi qanlı qırğından 24 il keçməsinə baxmayaraq, xalqımız o müdhiş gecəni daim xatırlayır, həmin faciənin ağrısı ilə yaşayır, bu vəhşiliyi törədənlərə dərin nifrətini bildirir. Hər il yanvarın 20-də minlərlə insan Şəhidlər xiyabanını ziyarət edir, Vətənin azadlığı və suverenliyi uğrunda canlarından keçmiş Azərbaycan oğul və qızlarının əziz xatirəsini ehtiramla yad edir.

20 Yanvar faciəsi mahiyyətinə görə dövlətin öz xalqına qarşı tarixdə misli görünməmiş təcavüzü, qətliamı idi. Bu qanlı qırğın keçmiş SSRİ, Azərbaycan SSR konstitusiyalarının kobudcasına pozulması, ayaqlar altına atılması idi. O gecə keçmiş SSRİ dövləti dinc əhalinin üstünə qoşun yeritməklə BMT Nizamnaməsini, beynəlxalq hüquq normalarını, həmçinin iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bir sıra müddəalarını pozmuşdur. Respublikanın o vaxtkı səriştəsiz, kölə psixologiyalı rəhbərlərinin isə bu faciədən sonra yenə də xalqla bir olmağa cəsarəti çatmadı və onlar sovet rəhbərliyinin əllərini çəkmədilər. Həmin vaxt Moskvada yaşayan ümummilli liderimiz Heydər Əliyev onların əksinə olaraq, həyatını təhlükədə qoyaraq faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gəldi və Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı. Bununla da ulu öndərimiz cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etdi.

Lakin bu qanlı qırğın Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa, istəyinə - azadlıq və müstəqilliyinə qovuşdu.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkə rəhbərliyinə yenidən qayıdışından sonra 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı.

Azərbaycan xalqı hər il 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir. Yanvarın 20-də səhər Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gələn Prezident İlham Əliyev «Əbədi məşəl» abidəsi önünə əklil qoymuşdur. Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycanın Dövlət himni səslənmişdir.

Dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad etməyə gəlmişdilər.

## Azərbaycan Prezidentinə «2013-cü ilin adamı» mükafatı təqdim olunmuşdur

Yanvarın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Milli Qəhrəman Çingiz Mustafayev Fondu və ANS Şirkətlər Qrupunun «2013-cü ilin adamı» mükafatının təqdim olunması mərasimi keçirilmişdir.

Mərasimdə çıxış edən Prezident İlham Əliyev Çingiz Mustafayev Fondunun və ANS Şirkətlər Qrupunun rəhbərliyinə minnətdarlığını ifadə edərək təltif olunduğu mükafatın onun üçün mühüm əhəmiyyət daşıdığını bildirmişdir. Azərbaycanın davamlı inkişafı və çiçəklənməsi üçün bundan sonra da əzmlə çalışacağını deyən dövlətimizin rəhbəri ANS Şirkətlər Qrupunun milli jurnalistikamızın inkişafındakı xidmətlərini önə çəkmiş, hərbi-vətənpərvərlik mövzularına geniş yer verməsini təqdir etmişdir: «Mən çalışıram və çalışacağam ki, öz işimlə doğma ölkəmizi inkişaf etdirək, irəliyə aparaq, qarşımızda duran bütün vəzifələri icra edək. Sizin mənə verdiyiniz belə yüksək qiymət əlbəttə ki, məni daha da ruhlandırır. Bu mükafatın öz yeri vardır. Mən artıq Prezident kimi 10 illik fəaliyyətim dövründə bir çox mükafatlarla təltif edilmişəm, ancaq bu mükafatın xüsusi yeri vardır. Çünki bu mükafatı mənə təqdim edən teleşirkət Azərbaycanda birinci müstəqil telekanaldır və Azərbaycanda müstəqil jurnalistikanın inkişafında ANS şirkətinin böyük rolu vardır. Mən bu rolu yüksək qiymətləndirirəm və çalışıram ki, sizin verilişlərinizi izləyim. Xüsusilə, vətənpərvərlik mövzuları ilə bağlı olan verilişlər daha böyük maraq doğurur. Hesab edirəm ki, cəmiyyətimizin gələcək inkişafı üçün belə verilişlərin sayının artırılması məqsədəmüvafiq olardı».

Mərasimdə ANS Şirkətlər Qrupunun vitse-prezidenti Mirşahin Ağayev, habelə şirkətin prezidenti, Milli Qəhrəman Çingiz Mustafayev Fondunun idarə heyətinin üzvü Vahid Mustafayev çıxış edərək dövlət başçısı İlham Əliyevin rəhbərliyi altında 2013-cü ildə Azərbaycanın dinamik inkişaf etdiyini, dünyadakı yerinin və rolunun gücləndiyini, bir sıra qlobal enerji layihələrinin uğurla reallaşdığını bildirmişlər. Onlar bu və digər böyük xidmətlərinə görə Prezident İlham Əliyevin 2013-cü ildə ilin adamı seçildiyini diqqətə çatdırmışlar.

Prezident İlham Əliyev 10 min manat civarında pul mükafatını ənənəvi olaraq Silahlı Qüvvələr Fonduna köçürdüyünü bildirmiş, eyni zamanda 2013-cü ilin Azərbaycan üçün bir sıra mühüm uğurlarla yadda qaldığını diqqətə çatdırmışdır. Prezident İlham Əliyev bu uğurlar sırasında «ASAN xidmət» mərkəzlərinin yaradılmasını, «Şahdəniz-2» üzrə yekun sazişin imzalanmasını, ilk kommunikasiya peykinin orbitə buraxılmasını xüsusi qeyd etmişdir: «Əminəm ki, 2014-cü il də Azərbaycan üçün uğurlu olacaqdır. Biz hamımız buna çalışırıq. Bir daha bu yüksək mükafata görə sizə minnətdarlığımı bildirmək istəyirəm. Bir daha sizin media layihələriniz haqqında deyə bilərəm ki, mən verilişləri izləyirəm. Burada oturanların demək olar ki, hamısını qiyabi də olsa tanıyıram. Arzu edirəm ki, gələcəkdə də siz həmişə Azərbaycan xalqının rəğbətini qazanasınız. Sizə inanırlar, sizi izləyirlər və müasir dünyada sözün, medianın əlbəttə ki, rolu getdikcə artır».

# Azərbaycan – NATO əlaqələri strateji xarakter daşıyır

*Yanvarın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belçika Krallığına işgüzar səfərə gəlmişdir. Dövlətimizin başçısı Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Filip Lefort ilə görüşmüşdür. Aİ ilə ölkəmiz arasında əlaqələrin hazırkı vəziyyətinə və perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.*

Yanvarın 15-də Prezident İlham Əliyev NATO-nun baş katibi Anders Foq Rasmussen ilə görüşmüşdür. A.Rasmussen NATO-Azərbaycan əlaqələrinin uğurla inkişaf etdiyini bildirmiş, Əfqanıstanda həyata keçirilən sülhyaratma əməliyyatları zamanı Azərbaycanın tranzit, maliyyə yardımı və digər sahələrdə göstərdiyi dəstəyə görə minnətdarlığını bildirmişdir. NATO-nun baş katibi Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin, o cümlədən Qafqazda sülhün və təhlükəsizliyin təmin edilməsi baxımından mühüm ölkə olduğunu bildirmişdir.

Sonra mətbuat konfransı keçirilmişdir. A.F.Rasmussen və Prezident İlham Əliyev əvvəlcə mətbuata bəyanatlarla çıxış etmişlər. NATO-nun baş katibi bildirmişdir ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyi, Qafqazda isə sülh və sabitlik üçün həyati əhəmiyyət kəsb edən ölkədir. NATO ilə Azərbaycan arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi nəzərdə tutulur. «Sülh naminə tərəfdaşlıq» Proqramı çərçivəsində birgə dialoq və əməkdaşlıq möhkəmlənəcəkdir.

Azərbaycan Prezidenti İlham Əliyev bəyanatla çıxış edərək bildirmişdir ki, Azərbaycan-NATO münasibətləri strateji əməkdaşlıq səviyyəsinə qalxıb. Azərbaycan hazırda NATO-nun sülh və təhlükəsizliklə bağlı proqramlarında fəal iştirak edir. Dövlətimizin başçısı Azərbaycanın Əfqanıstanda və Kosovoda təhlükəsizliyin təmin edilməsində iştirakını davam etdirəcəyini, sülhməramlı əməliyyatlara sadiq qalacağını bəyan etmişdir: «Bizim NATO-nun sülhməramlı əməliyyatlarında iştirakımız əməkdaşlığımızın mühüm hissəsidir. Biz terrorçuluğa qarşı mübarizədə əməkdaşlıq edirik. Mən Silahlı Qüvvələrimizdə aparılan islahatlara NATO-nun verdiyi dəstəyə görə minnətdaram. Silahlı Qüvvələrimiz NATO standartlarına uyğunlaşdırılır. Biz, həmçinin NATO-nun yardımı, o cümlədən maliyyə dəstəyi ilə Azərbaycanda minalardan təmizlənmə layihələrini həyata keçiririk».

Azərbaycan Prezidenti İlham Əliyev NATO-nun Şimali Atlantika Şurasında üzv dövlətlərin NATO yanında daimi nümayəndələri ilə görüşmüşdür. Dövlətimizin başçısı tədbirdə çıxış etmiş, Azərbaycan hərbçilərinin bir sıra bölgələrdə sülhyaratma əməliyyatlarında fəal iştirak etdiyini diqqətə çatdırmışdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan dövlətimizin başçısı Ermənistanın Azərbaycana təcavüzü və işğalın ağır nəticələrindən söhbət açmış, danışıqların hazırkı vəziyyəti və perspektivləri barədə məlumat vermişdir. Qeyd etmişdir ki, NATO-nun Şimali Atlantika Şurasında üzv dövlətlərin NATO yanında daimi nümayəndələri dəfələrlə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyini diqqətə çatdırmışlar.



Prezident İlham Əliyev son illərdə ölkəmizin sürətlə inkişaf etdiyini, iqtisadi baxımdan böyük uğurlar qazandığını, Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verdiyini də bildirmişdir, ölkəmizin Avropanın enerji təhlükəsizliyindəki rolunu xüsusi qeyd etmiş, Trans-Anadolu, Trans-Adriatik və «Şahdəniz-2» kimi iri enerji layihələrinin əhəmiyyətindən danışmışdır.

2 20 Yanvar faciəsinin ildönümünə həsr olunmuş anım mərasimi

3 Vergi borclarının məbləği azalır

4 İqtisadi azadlıq səviyyəsi üzrə 7 pillə irəlidə...

5 Ötən il iqtisadiyyata rekord həcmdə investisiya cəlb olunub

# 20 Yanvar faciəsinin ildönümünə həsr olunmuş anım mərasimi

*Vergilər Nazirliyində 20 Yanvar faciəsinin 24-cü ildönümünə həsr olunmuş anım mərasimi açıq elan edildikdən sonra şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.*

Bakı Dövlət Universitetinin Beynəlxalq hüquq kafedrasının müdiri, professor, hüquq elmləri doktoru Rüstəm Məmmədov bu qanlı faciənin tarixi kökləri, onu doğuran səbəblər barədə ətraflı məlumat verərək bildirmişdir ki, 1990-cı il yanvarın 20-də keçmiş sovet dövlətinin silahlı qüvvələrinin Azərbaycanda həyata keçirdiyi qanlı aksiya insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi tarixə düşmüşdür.

Həmin günlərdə Azərbaycan xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə ucaldıqlarına görə, bu hadisə ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə həm də bir qəhrəmanlıq səhifəsi kimi daxil olmuşdur.

Tədbirdə xüsusi vurğulanmışdır ki, qanlı Yanvar hadisələrinə əsl siyasi-hüquqi qiymət yalnız ümummilli liderimiz Heydər Əliyevin yenidən hakimiyyətə qayıtmasından sonra verilmiş, faciənin günahkarlarının adları açıqlanmışdır. Azərbaycanın informasiya blokadasına alındığı bir vaxtda ulu öndərin heç nədən çəkinmədən Azərbaycan Respublikasının Moskva şəhərindəki daimi nümayəndəliyinə gələrək xalqımızın haqq səsini dünya ictimaiyyətinə çatdırması, öz xalqı ilə birlikdə olduğunu açıq-aşkar nümayiş etdirməsi minnətdarlıq hissi ilə xatırlanmışdır. Qeyd edilmişdir ki, Heydər Əliyev 20 Yanvar şəhidlərinin xatirəsini daim əziz tutaraq onların adlarının əbədiləşdirilməsi ilə bağlı bir sıra fərman və sərəncamlar imzalamış, məhz onun sərəncamı ilə 20 yanvar «Ümumxalq hüzn günü» elan olunmuşdur. Şəhidlər xiyabanındakı möhtəşəm abidə də məhz ümummilli liderin təşəbbüsü ilə ucaldılmışdır.

Azərbaycan xalqı 20 Yanvar qurbanlarının xatirəsini bu gün də əziz tutur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən şəhid ailələrinin sosial problemlərinin həlli ilə bağlı mütəmadi olaraq konkret göstərişlər verilir, kompleks tədbirlər həyata keçirilərək onlara lazımi diqqət və qayğı göstərilir.



Tədbirdə İrəvan Dövlət Azərbaycan Dram Teatrının aktyorlarının ifasında 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş ədəbi-bədii kompozisiya nümayiş etdirilmişdir.

Yanvarın 20-də Vergilər Nazirliyinin kollektivi Şəhidlər xiyabanına gələrək Vətən uğrunda canlarından keçən Azərbaycanın qəhrəman övladlarının xatirəsini yad etmiş, məzarları önünə gül qoymuşlar.

# 20 Yanvar
## Tariximizin qürur günü

*Azərbaycan xalqı XX əsrin 90-cı illərində milli-azadlıq uğrunda mübarizəyə qalxaraq imperiya buxovlarından birdəfəlik azad olmaq üçün mücadiləyə başladı. Lakin azadlıq uğrunda xalqımızın şərəfli mübarizəsi qansız ötüşmədi.*

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet imperiyasının rəhbərliyi Azərbaycan xalqının mübarizə əzmini qırmaq üçün hərb maşınını işə salaraq bəşəriyyət qarşısında ən dəhşətli faciələrdən birini törətdi. Əliyalın əhaliyə qarşı qabaqcadan planlaşdırılmış cinayət əməlləri nəticəsində 132 nəfər günahsız insan öldürüldü, 744 nəfər yaralandı və yüzlərlə şəxs itkin düşdü.

Ümummilli liderimiz Heydər Əliyevin həmin dəhşətli günlərdə həyatını riskə qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində keçirilən mətbuat konfransında dediyi kimi: «O, ayrı-ayrı insanlara edilən qəsd, təcavüz deyildir. Bütün Azərbaycan xalqına, Azərbaycan millətinə, Azərbaycan ölkəsinə edilən hərbi təcavüz idi. Bu təcavüz nəticəsində həlak olanlar xalq qəhrəmanlarıdır, onlar millətimizin qəhrəmanlarıdır».

Ümummilli lider həmin tarixi çıxışında bildirirdi: «Azərbaycanda baş vermiş hadisələri mən hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm. 19-20 yanvarda baş vermiş bu faciə həm Sovet İttifaqının siyasi rəhbərliyinin, şəxsən M.S.Qorbaçovun böyük günahının nəticəsidir, onun diktatorluq meyillərindən əmələ gəlmiş bir haldır və eyni zamanda, Azərbaycan rəhbərliyinin xalqa xəyanəti və cinayətinin nəticəsidir». Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev totalitar rejimin hələ yaşadığı, qılıncının dalının da, qabağının da kəsdiyi bir vaxtda cəsarətlə bildirdi ki, bu akt Azərbaycan xalqına qarşı cinayətdir, hərbi təcavüzdür və faciəyə siyasi qiymət verilməlidir.

Mətbuat konfransından sonra daha ciddi təzyiqlərə və təqiblərə məruz qalan böyük öndər Vətənə qayıtdı. Azərbaycanın ağır günlərində xalqı ilə birgə olmağı özünə mənəvi borc bilən ümummilli lider həmin dövrdə respublika rəhbərliyində olan qüvvələrin mərkəzi hakimiyyətin buyruqlarını yerinə yetirərək Heydər Əliyevin Bakıda qalmasına hər vəchlə maneçilik törətməsi səbəbindən, Naxçıvana dönməyə və orada siyasi fəaliyyət göstərməyə məcbur oldu. Lakin Naxçıvanda olduğu müddətdə də qəlbinin həmişə xalqla döyündüyünü, həyatını öz xalqının xoşbəxt gələcəyinə həsr etdiyini Heydər Əliyev bir daha sübut etdi. 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verən ilk sənəd məhz ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə qəbul edildi. 1991-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi bu hadisəyə siyasi-hüquqi qiymət verərək, faciənin təşkilatçılarını, icraçılarını açıq şəkildə göstərdi və 20 Yanvar faciəsini imperiya rəhbərləri tərəfindən Azərbaycan xalqının milli-azadlıq hərəkatını boğmaq cəhdi kimi qiymətləndirdi: «Yanvar faciələrinin səbəbkarlarının - istər İttifaq, istərsə də respublika rəhbər partiya, sovet, hüquq-mühafizə orqanı işçilərinin, hərbçilərin bu günədək aşkar edilib qanunla məsuliyyətə cəlb olunmaması xalqda dərin hiddət və etiraz doğurmuşdur. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bütün bunları işğalçı siyasət və dəqiq düşünülmüş hərbi təcavüz, eyni zamanda, insan hüquqları bəyannaməsinin kobud şəkildə pozulması kimi qiymətləndirir».




*20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verən ilk sənəd məhz ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə qəbul edildi*

Təəssüf ki, sovet hakimiyyətinin süqutundan və Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsindən sonra da başları hakimiyyət uğrunda mübarizəyə qarışmış Azərbaycan rəhbərləri xalqımıza qarşı törədilmiş bu ağır cinayətin səbəblərinin araşdırılması, ona siyasi-hüquqi qiymət verilməsi və cinayətkarların müəyyən edilməsi istiqamətində məqsədyönlü, ardıcıl iş aparmadılar.

20 Yanvar hadisələrinin əsl mahiyyəti yalnız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra - 1994-cü ildə məhz onun təşəbbüsü və bilavasitə iştirakı ilə açıqlandı. 1994-cü il martın 29-da «1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında» adlı xüsusi qərar qəbul edildi və ilk dəfə respublika səviyyəsində xalqımıza qarşı törədilən bu qanlı və qəddar aksiyaya siyasi-hüquqi qiymət verildi.

Azərbaycan Prezidenti İlham Əliyev 20 Yanvarda dövlətimizin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və xoşbəxt gələcəyi uğrunda şəhid olmuş Vətən övladlarının xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, övladlarının sosial müdafiəsinin gücləndirilməsi üçün mühüm işlər görmüşdür. Dövlət başçısının 19 yanvar 2006-cı il tarixli «20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında» fərmanı ilə şəhid ailələrinə dövlət qayğısı daha da artırılmış oldu.

Azərbaycan xalqının azadlıq, müstəqillik uğrunda «Vətən sağ olsun» deyib canlarından keçən övladları bütün dünyaya sübut etdilər ki, torpaq müqəddəsdir, toxunulmazdır. Vətən torpağından pay olmaz, onu parçalamaq, yadlara vermək olmaz.

Təsadüfi deyilməyib ki, heç nə yaddan çıxmır, heç kəs unudulmur. Vətən yolunda şəhidlik zirvəsinə yüksələnlər də heç vaxt unudulmur, yaddaşlardan silinmir, çünki şəhidlər ölməzdir. Bu ölməzlik həm də dövlətimizin müstəqilliyində, xalqımızın birliyində yaşayır.

Allah şəhidlərimizə rəhmət eləsin!

**Anar ƏLİYEV**

# Vətəndaş müraciətləri araşdırılır
## Ötən il ərzində müraciətlərin cəmi 1,1%-ni şikayətlər təşkil etmişdir

*2013-cü ildə dövlət vergi orqanlarına cəmi 66140 müraciət daxil olmuşdur. Onlardan 97,9%-i ərizə, 1,9%-i şikayət, 0,2%-i təklif olmuş, 394 müraciətin icrası xüsusi nəzarətə götürülmüşdür. Müraciətlərin 33%-i müxtəlif arayışların alınması, 27,3%-i kameral vergi yoxlamaları, 8,4%-i vergi borcları, 7,9%-i səyyar vergi yoxlamaları, 23,4%-i isə digər məsələlərlə bağlı olmuşdur.*

Müraciətlərin ümumi sayından 78%-i müsbət həll olunmuş, 12,8%-i barədə müvafiq izahatlar verilmiş, 5%-i əsassız sayılmış, 1,6%-i qismən həll olunmuş, 1,1%-i aidiyyəti üzrə göndərilmiş, 1,5%-i icradadır.

İl ərzində vergi orqanlarına daxil olmuş şikayətlərin 403-ü eyni, 102-si təkrardır, yəni faktiki olaraq şikayətlər cəmi 757 məsələ ilə bağlıdır ki, bu da ümumi müraciətlərin cəmi 1,1%-ni təşkil edir. Ümumilikdə şikayətlərin 44,2%-i əsassız sayılmış, 27,3%-i üzrə müvafiq izahatlar verilmiş, 15%-i müsbət həll olunmuş, 4,6%-i aidiyyəti üzrə göndərilmiş, 2,8%-i qismən həll olunmuş, 6,1%-i icradadır.

Apelyasiya Şurasında baxılaraq barəsində müvafiq qərarlar qəbul edilmiş 13 vətəndaş müraciətinin 4-ü təmin edilmiş, 4-ü təmin edilməmiş, 1-i qismən təmin edilmiş, 1-i üzrə məhkəmə qərarı olduğundan işə mahiyyəti üzrə baxılmamış, 1-i baxılması üçün aidiyyəti üzrə göndərilmiş, 2 müraciət isə icradadır.

İl ərzində vətəndaş müraciətlərinə baxılması nəticəsində vəzifə funksiyalarının icrası zamanı qanun pozuntusuna yol vermiş 35 əməkdaş barəsində intizam tənbehi tətbiq edilmiş, o cümlədən 25 əməkdaşa töhmət, 8 əməkdaşa sonuncu xəbərdarlıqla şiddətli töhmət verilmiş, 1 əməkdaşın xüsusi rütbəsi bir pillə aşağı salınmış, 1 əməkdaşın vergi orqanlarında xidmətinə xitam verilmişdir.

Hesabat dövründə dövlət vergi orqanlarında 24312, o cümlədən nazirliyin aparatında 717, tabeli qurumlarda 23595 vətəndaş qəbul olunmuşdur.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2013-cü ildə respublikanın şəhər və rayonlarında vətəndaşların qəbulu qrafikinə əsasən, vergilər naziri cənab Fazil Məmmədov tərəfindən 10 şəhər və rayonda vətəndaşların səyyar qəbulları keçirilmişdir. Respublikanın bütün şəhər və rayonlarını əhatə etmiş bu qəbullarda cəmi 535 nəfər iştirak etmişdir. Qəbul zamanı hər bir vətəndaşın müraciətinə fərdi qaydada yanaşılmış, müraciətlərin mahiyyəti diqqətlə öyrənilərək müvafiq tədbirlər görülmüşdür. Müraciətlərdən 235-i Vergilər Nazirliyinin səlahiyyətlərinə aid olan məsələlər, 109-u işə qəbul, 191-i isə maddi yardım almaq, kreditlərin verilməsinə köməklik göstərmək və digər məsələlər barədə olmuşdur. Qəbul edilmiş vətəndaşlardan 262-nin müraciəti müsbət həll olunmuş, 191-i barədə müvafiq izahat verilmiş, 78-i baxılması üçün aidiyyəti dövlət orqanlarına göndərilmiş, 4-nün həlli istiqamətində işlər davam etdirilir.

Vergi ödəyicilərinin nəzərinə!
31 yanvar 2014-cü il tarixədək
muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan verginin illik bəyannaməsi vergi orqanına təqdim olunmalıdır.
Azərbaycan Respublikası Vergilər Nazirliyi
www.taxes.gov.az • www.e-taxes.gov.az

# Kənd təsərrüfatının inkişafı iqtisadi siyasətin prioritetlərindəndir

*Azərbaycan Prezidenti İlham Əliyev «Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında» sərəncam imzalamışdır.*

Sərəncamda kənd təsərrüfatının inkişafının dövlətin iqtisadi siyasətinin prioritetlərindən biri olduğu qeyd edilmişdir. Vurğulanmışdır ki, bu məqsədlə fermer üçün bir sıra güzəştlər müəyyən olunmuş, kənd təsərrüfatı məhsulları istehsalçıları, torpaq vergisi istisna olmaqla, digər vergilərdən azad edilmişlər. Həmçinin, əkin sahələrinin becərilməsində istifadə olunan yanacaq və motor yağlarına görə istehsalçılara hər hektar üçün 40 manat, buğda və çəltik istehsalçılarına isə əlavə olaraq daha 40 manat subsidiya verilir. Fermer və sahibkarlara güzəştli şərtlərlə kredit, toxum, gübrə, texnika, damazlıq mal-qara almaq imkanı yaradılmışdır.

Sərəncamda kənd təsərrüfatında yüksək məhsuldarlığın təmin edilməsi, yerli məhsulların rəqabət qabiliyyətinin artırılması, fermerlərə dövlət dəstəyinin daha səmərəli təşkili və ərzaq təhlükəsizliyinə nail olunmasının hazırda aqrar sahədə dövlət siyasətinin mühüm istiqamətləri olduğu diqqətə çatdırılmışdır.

Sənəddə məhsulun istehsalçıdan istehlakçıya çatdırılması mərhələsində mövcud maneələrin aradan qaldırılması, ərzaq bazarında süni qiymət artımının qarşısının alınması, məhsulların qəbulu və saxlanması üçün ixtisaslaşdırılmış terminalların və anbarların yaradılması, müvafiq nəqliyyat infrastrukturunun təşkili, xüsusi ərzaq mağazaları şəbəkəsinin genişləndirilməsi istiqamətində təxirəsalınmaz tədbirlər görülməsinə ehtiyac olduğu qeyd edilmişdir.

Prezidentin sərəncamı ilə kənd təsərrüfatı məhsulları ixracının artırılması, istehsalçıların və istehlakçıların maraqlarının qorunması, ərzaq bazasının səmərəli fəaliyyətinin təmin edilməsi məqsədi ilə əlavə tədbirlər müəyyənləşdirilmişdir. Bu tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinə Kənd Təsərrüfatı Nazirliyinə, İqtisadiyyat və Sənaye Nazirliyinə, və digər əlaqədar dövlət qurumlarına müvafiq tapşırıqlar verilmişdir.

# Vergi borclarının məbləği azalır



*Müsahibimiz Vergilər Nazirliyinin Vergi borclarının alınması işinin təşkili idarəsinin rəisi Zeynalabdin Məmmədzadədir.*

***- Dövlətin maliyyə sabitliyini təmin edən amillərdən biri də vergilərin dövlət büdcəsinə vaxtında və tam həcmdə ödənilməsinin təmin olunmasıdır. Vergi qanunvericiliyində göstərildiyi kimi, müəyyən edilmiş vergilər dövlət büdcəsinə tam və vaxtında ödənilməlidir. Azərbaycanda vergi borcları sahəsində son zamanlar vəziyyət necədir?***

- Ötən il Azərbaycan iqtisadiyyatında və vergi sistemində müsbət tendensiyalar davam etmiş və sabitlik nümayiş olunmuşdur. Vergi orqanlarında idarəetmə sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması, vergilərin könüllü ödənilməsi sisteminin inkişaf etdirilməsi, vergi ödəyicilərinin hüquqlarının etibarlı qorunmasının təmin olunması, vergidən yayınma halları ilə mübarizənin gücləndirilməsi və vergi borclarının yaranmasının qarşısının alınması istiqamətində əhəmiyyətli işlər görülmüşdür. Bütün bunlar isə öz növbəsində vergi borclarının azalmasına da öz təsirini göstərmişdir.

2014-cü ilin 1 yanvar tarixinə vergi ödəyicilərinin dövlət büdcəsinə olan borclarının məbləği 2012-ci ilin yanvar ayının 1-nə olan məbləği ilə müqayisədə 23,8 faiz, 2013-cü ilin yanvar ayının 1-nə olan məbləği ilə müqayisədə isə 9,0 faiz azalmışdır. İl ərzində 227 min 480 borclu vergi ödəyicisinin vergi borcları tamamilə ləğv edilmişdir. Cari ilin 1 yanvar tarixinə borclu vergi ödəyicilərinin ümumi vergi ödəyicilərinin sayında xüsusi çəkisi cəmi 3,4 faiz təşkil etmişdir.

***- Vergi borclarının vaxtında ödənilməsinin təmin olunmasında Vergi Məcəlləsinin və digər qanunvericilik aktlarının tətbiqi vergi borclarının ödənilməsinə nə dərəcədə təsir göstərir?***

- Vergilər Nazirliyi tərəfindən vergi borclarının yaranma hallarının və vergi borclarının məbləğinin azaldılması, borclu vergi ödəyicilərinə fərdi yanaşma, borcların alınması üçün mümkün olan bütün tədbirlərdən kompleks şəkildə istifadə edilməsi, təbii ki, borcların səmərəli idarə olunmasına öz müsbət təsirini göstərir.

Qeyd edim ki, ötən il vergi ödəyicilərinin dövlət büdcəsinə yaranmış borclarının ödənilməsinin təmin edilməsi məqsədilə vergi orqanları tərəfindən əmlakın siyahıya alınması barədə 60 min 700 sayda qərar açılmış və bu qərarların 86,8 faizi borclar ləğv edildiyi üçün bağlanmışdır. 2013-cü il ərzində əmlakın siyahıya alınması barədə açılmış qərarlar üzrə 58,1 milyon manat məbləğində vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir.

Bununla yanaşı, ötən il vergi öhdəliklərini qanunvericiliklə müəyyən edilmiş müddətdə yerinə yetirməyən 454 borclu vergi ödəyicisində keçirilmiş operativ vergi nəzarəti tədbirləri nəticəsində 286 borclu vergi ödəyicisində qanun pozuntusu aşkar edilmiş və onlar barəsində 78,3 min manat məbləğində maliyyə sanksiyası və inzibati cərimə tətbiq olunmuşdur. Keçirilmiş tədbirlər nəticəsində tətbiq edilmiş maliyyə sanksiyaları və inzibati cərimələrin 89,4 faizinin dövlət büdcəsinə ödənilməsi təmin olunmuşdur.

Göstərilən dövr ərzində borclu fiziki şəxslərin borcları üzrə tələbin onların mülkiyyətində olan avtonəqliyyat vasitələrinə yönəldilməsi prosesi davam etdirilmişdir. Görülmüş tədbirlər nəticəsində 2 min 121 vergi ödəyicisinin 1 milyon 387,6 min manat məbləğində borc məbləğinin dövlət büdcəsinə ödənilməsi təmin edilmiş, 27 vergi ödəyicisinin nəqliyyat vasitələri siyahıya alınmış, 1139 vergi ödəyicisi tərəfindən nəqliyyat vasitələri siyahıya alınmaya təqdim edilmədiyi üçün həmin nəqliyyat vasitələrinin üzərinə həbs qoyulmaqla cərimə meydançalarına yerləşdirilməsi barədə məhkəmələr tərəfindən qərarlar qəbul edilmişdir.

Aparılan araşdırmalarla mülkiyyətində heç bir daşınan və ya daşınmaz əmlakı müəyyən edilməyən, lakin hüquqi şəxslərdə təsisçi (payçı) olduqları müəyyən edilən borclu fiziki şəxslərin borclarının onların paylarından tutulması istiqamətində tədbirlər də davam etdirilmişdir.

Hüquqi şəxslərdə təsisçi kimi çıxış edən fiziki şəxslərin borclarının həmin hüquqi şəxslərdəki paylarından tutulması məqsədilə 66 borclu fiziki şəxsə qarşı məhkəmələrdə iddialar qaldırılmışdır. Həmin iddialar üzrə 49 iş üzrə borc məbləğinin hüquqi şəxsin əmlakındakı payına yönəldilməsi barədə qətnamə çıxarılmış və 8 iş üzrə borc məbləği ödənildiyindən müvafiq məhkəmə qərardadı qəbul olunmuşdur. Borc məbləğlərinin qeyd edilən mənbələrə yönəldilməsi barədə görülmüş tədbirlər nəticəsində hüquqi şəxslərdə təsisçi (payçı) kimi çıxış edən 1224 borclu fiziki şəxs üzrə 1.022,5 min manat məbləğində borcların dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir.

*Cari ilin 1 yanvar tarixinə borclu vergi ödəyicilərinin ümumi vergi ödəyicilərinin sayında xüsusi çəkisi cəmi 3,4 faiz təşkil etmişdir*

Kiçik həcmdə borcları olan vergi ödəyiciləri üzrə «İnzibati icraat haqqında» Qanunun tələblərinə uyğun olaraq «Tələbin icraya yönəldilməsi barədə qərarlar» qəbul edilməklə birbaşa icra məmurlarına edilən müraciətlər əsasında 3402 vergi ödəyicisinin 577,6 min manat məbləğində borcları dövlət büdcəsinə ödənilmişdir.

Vergi orqanları tərəfindən borclu vergi ödəyicilərinin ölkədən getmə hüququnun məhdudlaşdırılması üçün aidiyyəti üzrə edilmiş müraciətlərdən sonra onların bir qismi borclarını ödəmiş, 29-nun isə ölkədən getmə hüququ məhkəmə qərarı ilə məhdudlaşdırılmışdır. Vergi borcunu ödəməkdən yayınmaya görə 11,8 milyon manat borc məbləği üzrə 398 vergi ödəyicisi barədə materiallar ibtidai istintaq qaydasında araşdırılması məqsədilə Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə göndərilmişdir.

***- Qeyd etdiyiniz kimi, vergi borclarının alınması istiqamətində keçirilən ənənəvi tədbirlərlə yanaşı, borclu vergi ödəyicilərinə fərdi yanaşma prinsipinin tətbiqi genişləndirilmişdir. Bu tendensiya nə dərəcədə əhəmiyyətlidir?***

- Əlbəttə ki, biz öz fəaliyyətimizdə hər bir borclu vergi ödəyicisinə fərdi yanaşmağa çalışırıq. Bu sahədə səmərəliliyin təmin olunması üçün ilk növbədə vergi borcunun yaranma səbəbləri araşdırılır, həmin borcun ödənilməsi ilə bağlı vergi ödəyicisinin imkanları dəyərləndirilir və borcun yönəldilməsi üçün mənbələr dəqiq müəyyən edilir.

Vergilər Nazirliyinin Vergi borclarının alınması işinin təşkili idarəsi tərəfindən borclu vergi ödəyiciləri barədə məlumat bazası yaradılmış və həmin vergi ödəyiciləri müvafiq meyarlar nəzərə alınmaqla risk qrupları üzrə bölüşdürülmüşdür.

Borclu vergi ödəyiciləri barədə məlumat bazasının yaradılması vergi borcunun ödənilməsi istiqamətində daha tez nəticə verə biləcək metodların seçilməsinə, borclu vergi ödəyicilərinin müvafiq risk qruplarına ayrılması isə həmin ödəyicilər üzrə görülmüş və görüləcək işlərə nəzarətin daha da effektiv şəkildə həyata keçirilməsinə köməklik edəcəkdir. Bu məlumatlar Vergilər Nazirliyi tərəfindən hər ay yenilənərək yerli vergi orqanlarına təqdim edilir.

***- Vergilər Nazirliyi bir çox ölkələrin vergi xidmətləri ilə sıx əməkdaşlıq edir, nazirliyin əməkdaşları xarici ölkələrdə işgüzar səfərlərdə olurlar. Vergi borclarının alınması işində beynəlxalq təcrübədən hansı şəkildə faydalanmağı düşünürsünüz?***

- Beynəlxalq təşkilatlarla mövcud olan əməkdaşlığın genişləndirilməsi Vergilər Nazirliyi qarşısında duran prioritet hədəflərdəndir. Azərbaycan Respublikası Vergilər Nazirliyi IOTA (Avropadaxili Vergi Administrasiyaları Təşkilatı), OECD (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı) və digər nüfuzlu beynəlxalq qurumlarla sıx əməkdaşlıq edir. Hazırda tərəfimizdən bir çox qabaqcıl ölkələrin «vergi ödəyicisinin əmlakı olmadıqda vergi borcunun alınması mexanizmləri, elektron hərracların keçirilməsi, borcların alınması məqsədi ilə icra məmurları ilə qarşılıqlı fəaliyyətin təşkili, könüllü ödəmələrin təşviqi (promotion of tax compliance)» sahəsində təcrübələri öyrənilərək təhlil edilir və bununla bağlı müvafiq müddəaların Azərbaycan Respublikasının Vergi Məcəlləsinə daxil edilməsi istiqamətində hazırlıq işləri aparılır. Bundan başqa, vergi sahəsində ölkəmizdə keçirilən beynəlxalq tədbirlər zamanı həyata keçirilən təcrübə mübadiləsi də vergi borclarının idarə olunmasında böyük rol oynayır.

***- Vergi borclarının azalması üçün hansı stimullaşdırıcı tədbirlər görülə bilər?***

- Vergilər Nazirliyi vergi ödəyiciləri tərəfindən vergi öhdəliklərinin icra edilməsinin təkmilləşdirilməsi işlərini daim diqqətdə saxlayır. Bu proses istər könüllü əməletmə səviyyəsinin yüksəldilməsi, istərsə də vergi borclarının səmərəli idarə edilməsi üçün mühüm amillərdəndir. Bununla bağlı mövcud qanunvericiliyə nəzər salsaq, bu istiqamətdə kifayət qədər stimullaşdırıcı tədbirlərin mövcudluğunun şahidi olarıq.

Vergi Məcəlləsinə əsasən, vergi ödəyicisinin vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin dəyişdirilməsi ilə bağlı vergi orqanına müraciət etmək hüququ vardır. Həmin hüquqdan istifadə etməklə vergi ödəyicisinin vergi öhdəliyinin yerinə yetirilməsi müddəti vergi ili ərzində 1 aydan 9 ayadək uzadıla bilər.

2013-cü ilin yanvar ayının 1-dən etibarən «Vergi partnyorluğu sazişi»nin bağlanılması üçün vergi orqanlarına müraciət etmək Vergi Məcəlləsində vergi ödəyicisinin hüququ kimi müəyyən edilmişdir. Vergi orqanı ilə bağlanmış bu saziş vergi risklərinin minimallaşdırılması məqsədi ilə könüllü şəkildə bağlanılmış niyyət razılaşması olmaqla yanaşı, vergi ödəyicilərinə bir sıra üstünlüklər verir. Belə ki, vergi orqanı ilə partnyorluq sazişi bağlamaq istəyən vergi ödəyiciləri ilk öncə büdcə qarşısında bütün vergi öhdəliklərini yerinə yetirməlidirlər.

Hazırda vergi borcları barədə məlumatların vergi ödəyicilərinə çatdırılması üçün geniş məlumatlandırma vasitələrindən istifadə edilir. Bunun üçün vergi ödəyicilərinə bildiriş və xəbərdarlıqların göndərilməsi ilə yanaşı, onların vergi orqanlarında olan mobil telefon nömrələrinə borc məbləğləri barədə qısa SMS-lərin və səsli mesajların göndərilməsi də həyata keçirilir. Bununla da vergi borcu barədə məlumatın vergi ödəyicisinə vaxtında çatdırılması vergi borclarının operativ qaydada alınmasına köməklik göstərir.

Digər qanunvericilik aktlarında da vergi borclarının azalmasına münasibətdə stimullaşdırıcı tədbirlər nəzərdə tutulmuşdur. Belə ki, Cinayət Məcəlləsinin 213-cü maddəsinin qeyd hissəsinin tələblərinə əsasən, cinayət tərkibi yaratmış vergi borcu ilə əlaqədar əməl ilk dəfə törədilərsə və cinayət nəticəsində vurulmuş ziyan tamamilə ödənilərsə, vergi ödəyicisi cinayət məsuliyyətindən azad oluna bilər.

Beynəlxalq təcrübədə də bir çox stimullaşdırıcı tədbirlər mövcuddur. Məsələn, Amerika Birləşmiş Ştatlarının təcrübəsində vergi ödəyicisi vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin dəyişdirilməsi barədə vergi orqanına müraciət etməklə yanaşı, vergi öhdəliyini qrafik əsasında bərabər hissələrə bölünməklə ödəmək hüququna malikdir.

Latviya Respublikasında borclu vergi ödəyicilərinə xüsusi dəstək proqramı çərçivəsində vergi borcunun 10%-ni ödəyən vergi ödəyicilərinin qalan borclarına görə onlara 60 ayadək müddətə möhlətin verilməsi və bu müddətdə faiz hesablanmasının dayandırılması nəzərdə tutulur.

Hazırda vergi borclarının azalması üçün stimullaşdırıcı tədbirlərin siyahısını genişləndirmək məqsədilə mövcud beynəlxalq təcrübəni nəzərdən keçiririk və ola bilsin ki, gələcəkdə bununla bağlı Vergi Məcəlləsində müvafiq dəyişikliklər edilməsi təklif olunsun.



Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

## Rakurs

# Vergi güzəştlərinin tətbiqi

Vergilərin tənzimləyici funksiyasının həyata keçirilməsində istifadə olunan əsas iqtisadi alətlərdən biri vergi güzəştlərinin verilməsidir. Bu, vergi ödəyicilərinin müəyyən kateqoriyalarının və ya fəaliyyət sahələrinin vergilərdən tam və ya qismən azad olunmasını nəzərdə tutaraq müvafiq fəaliyyət sahəsində baş verən iqtisadi proseslərin sürətləndirilməsinə yönəldilir. Təcrübə göstərir ki, vergi siyasətinin səmərəliliyinə o vaxt nail oluna bilər ki, vergi güzəştlərinin verilməsinin əsasları dəqiq və obyektiv müəyyən olunsun, onlardan yalnız təyinatı üzrə istifadə edilsin.

Onu da qeyd etmək lazımdır ki, vergi güzəştlərinin verilməsi vergilərin müəyyən olunmasının əsas elementi sayılmır. Bu hal Azərbaycan Respublikasının Vergi Məcəlləsində öz əksini tapmışdır. Məcəllənin 12-ci maddəsində göstərilir ki, vergi o halda müəyyən edilmiş hesab olunur ki, bu zaman vergi ödəyicisi və aşağıdakı vergitutma elementləri müəyyən edilmiş olsun: vergitutma obyekti, vergitutma bazası, vergi dövrü, vergi dərəcəsi, verginin hesablanması qaydası, verginin ödənilməsi qaydası və müddəti. Vergi müəyyən edildikdə, Məcəllə ilə nəzərdə tutulan əsaslarla vergi güzəştləri də müəyyənləşdirilə bilər. Bu isə o deməkdir ki, vergilərin müəyyən olunması zamanı vergi güzəştlərinin mütləq qaydada verilməsi məcburi deyildir.

*Ünvanlı vergi güzəştlərinin verilməsində əsas məqsəd bu güzəştdən istifadə etmək hüququ olan vergi ödəyicilərinin ümumi vergi yükünün aşağı salınmasından ibarətdir*

Vergi güzəştinin verilməsi vergi yükünün azaldılması məqsədilə vergi ödəyicisinin qanunvericiliklə müəyyən edilmiş vergini ödəməkdən tam və ya qismən azad olunması deməkdir. Azadolma qarşıda duran məqsədlərdən asılı olaraq daimi və ya müvəqqəti ola bilər. Vergi güzəştinin verilməsi həm də vergi ödəyicisinin daha əlverişli vergi rejimi ilə vergiyə cəlb olunmasını nəzərdə tutaraq, ödənilməli vergi məbləğinin azaldılması ilə nəticələnir. Vergi güzəşti barədə verilmiş bu və ya digər oxşar fikirlər vergi yükünün azaldılması ilə bağlı olmaqla, ilk baxışdan onun əsas mahiyyətini kiçiltmiş olur. Belə ki, güzəştlərin verilməsində məqsəd təkcə vergi yükünün azaldılması deyil, həm də müəyyən iqtisadi məqsədlərə nail olunması ilə bağlıdır. Bunu vergi güzəştlərini xarakterizə edən aşağıdakı elementlərdən daha aydın görmək olar:

- vergi güzəştlərinin müddətli olması onun yalnız müəyyən dövr ərzində tətbiq olunduğunu göstərir;
- vergi güzəştlərinin ünvanlılığı onun müəyyən kateqoriyadan olan vergi ödəyiciləri üçün nəzərdə tutulduğunu bildirir;
- vergi güzəştlərinin könüllülüyü güzəştlərdən könüllü qaydada istifadə olunmanı göstərir;
- vergi güzəştlərinin məqsədli olması onların konkret məqsədlər üçün nəzərdə tutulduğunu bildirir.

İqtisadi ədəbiyyatda vergi güzəştlərinin kompensasiya və stimullaşdırıcı funksiyalarına daha çox rast gəlinir. Kompensasiya funksiyası müxtəlif daxili və xarici faktorların təsirinə məruz qalan təsərrüfat subyektləri üçün bərabər imkanların yaradılmasını təmin edir. Tənzimləyici funksiya isə ayrı-ayrı təsərrüfat subyektlərinin inkişafı üçün əlverişli iqtisadi şəraitin yaradılmasına yönəldilir. Hər bir funksiyanın isə vergi daxilolmalarının artırılmasında özünəməxsus rolu vardır. Vergi güzəştləri bilavasitə fiskal funksiya daşımasa da, onların ünvanlı və düzgün tətbiq olunması ayrı-ayrı təsərrüfat subyektlərinin maliyyə vəziyyətinin yaxşılaşmasına müsbət təsir göstərir. Son nəticədə isə dövlət xəzinəsinə vergi daxilolmalarının artımı təmin edilir.

Ümumiyyətlə, vergi güzəştlərini iki kateqoriyaya bölmək olar: hər bir vergi ödəyicisi tərəfindən istifadə olunan güzəştlər; yalnız vergi ödəyicilərinin müəyyən kateqoriyalarına aid güzəştlər. İkinci kateqoriyaya aid edilən vergi güzəştləri vergi nəzəriyyəsində «ünvanlı vergi güzəştləri» də adlandırılır. Belə güzəştlər müəyyən fəaliyyət növlərinin inkişafına dəstək verilməsi üçün vergi dərəcələrinin aşağı salınması, hesablanmış vergidən çıxılmalar və s. şəkildə dövlət tərəfindən verilir və ünvanlı xarakter daşıyır. Onu da qeyd etmək lazımdır ki, bu güzəştlər müəyyən şərtlər daxilində və müxtəlif faktorlar nəzərə alınmaqla verilir. Həmin faktorlara fəaliyyət növü, işçi personalın sayı, istehsal sahəsi, xidmət və məhsul növləri, nizamnamə kapitalının həcmi, əməkhaqqı fondu, dövlət və qeyri-dövlət sosial fondlarına ayırmaların həcmi və s. aid edilir. Ünvanlı vergi güzəştlərinin verilməsində əsas məqsəd bu güzəştdən istifadə etmək hüququ olan vergi ödəyicilərinin ümumi vergi yükünün aşağı salınmasından ibarətdir. Ünvanlı vergi güzəştləri həm sosial, həm də iqtisadi məqsəd daşıya bilər. Sosial məqsədli güzəştlər əhalinin aztəminatlı təbəqələrinin maddi vəziyyətinin yaxşılaşdırılmasına yönəldilir. İqtisadi yönümlü güzəştlərin verilməsi isə müəyyən fəaliyyət sahələrinin (müasir dövrdə, əsasən, innovasiyaların) inkişafına maliyyə dəstəyinin verilməsi məqsədini daşıyır.

Qeyd olunanlardan belə nəticəyə gəlmək olar ki, adi vergi güzəştlərindən fərqli olaraq, ünvanlı vergi güzəştləri vergi ödəyicilərinə verilmiş bir hüquq olsa da, onlardan istifadə olunması məcburi xarakter daşıyır. Çünki ünvanlı xarakter daşıyan sosial və iqtisadi yönümlü güzəştlər dövlətin həyata keçirdiyi siyasətin tələblərindən irəli gəlir.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- 2013-cü ildə sənayedə istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi **33,7 milyard** manat təşkil edərək əvvəlki illə müqayisədə **1,8%** çox olmuşdur.
- Ötən il sənayenin qeyri-neft sahələrində istehsalın həcmi əvvəlki ilin səviyyəsini **4,8%**, neft-qaz sektorunda isə **1,1%** üstələmişdir.
- 2013-cü ildə bütün maliyyə mənbələrindən əsas kapitala **17,9 milyard** manat və ya əvvəlki ilə nisbətən **15,1%** çox vəsait yönəldilmiş, onun **76,7%**-i daxili mənbələr hesabına təmin edilmişdir.
- Ötən il Azərbaycandan **102** ölkəyə əmtəə ixrac olunmuş, **140** ölkədən idxal edilmişdir.



Hüquq məsləhətxanamız

Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

## Hüquqi şəxsin ləğvi

***Təsisçisi olduğum hüquqi şəxsi ləğv etmək istəyirəm. Ləğvetmə prosesində olma barədə qeydin dövlət reyestrinə daxil edilməsi üçün hansı sənədləri təqdim etməliyəm?***

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 59.1-ci maddəsinə əsasən, hüquqi şəxsin ləğvi onun mövcudluğuna və fəaliyyətinə hüquq və vəzifələri hüquq varisliyi qaydasında başqa şəxslərə keçmədən xitam verilməsi deməkdir. Həmçinin, «Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında» 22 noyabr 2013-cü il tarixli Qanuna əsasən, Mülki Məcəllənin (bundan sonra Məcəllə) yeni redaksiyada verilmiş 60.1-ci maddəsinə uyğun olaraq hüquqi şəxsin ləğvi haqqında qərarla ləğvetmə komissiyası (təsviyəçi) təyin edilir, Məcəllə əsasında ləğvetmə qaydası və müddətləri müəyyənləşdirilir və ləğvetmə prosesi başlayır.

Məcəllədə yuxarıda qeyd olunan dəyişikliklə əlavə edilmiş 59.2-1-ci maddəsində kreditorların bütün tələblərini 12 ay ərzində qarşılamaq üçün ödəmə qabiliyyətinin olmasını təsdiq edən rəsmi bəyanatın verilməsi də nəzərdə tutulmuşdur. Məcəllənin 61.1-ci maddəsinə əsasən isə ləğvetmə komissiyası (təsviyəçi) təyin olunduğu gündən sonra 10 gün müddətində Azərbaycan Respublikasında hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatın dərc edildiyi mətbu nəşrdə hüquqi şəxsin ləğv edilməsi, kreditorların tələblərinin bildirilməsi qaydası və müddəti haqqında ilk məlumatı dərc etdirir.

«Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» 22 noyabr 2013-cü il tarixli Qanunla «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikası Qanununun 16.1-ci maddəsi yeni redaksiyada verilmişdir. Yeni redaksiyaya görə, hüquqi şəxsin ləğv prosesində olması barədə məlumatların hüquqi şəxslərin dövlət reyestrinə daxil edilməsi üçün ləğvetmə komissiyası (təsviyəçi) təyin olunduğu gündən sonra 15 gün müddətində ərizə ilə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına müraciət etməlidir. Qanunun 16.1-ci maddəsinə əsasən, həmin ərizəyə ləğvetmə qərarı, ödəmə qabiliyyətinin olmasını təsdiq edən rəsmi bəyanat, Azərbaycan Respublikasında hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatın dərc edildiyi mətbu nəşrdə hüquqi şəxsin ləğv edilməsi, kreditorların tələblərinin bildirilməsi qaydası və müddəti haqqında ilk məlumatın dərc olunmasını təsdiq edən sənəd və möhür əlavə olunmalıdır.

# Yeni müəssisələr yaranır, işsizlik problemi aradan qaldırılır

*«Son on il ərzində Azərbaycanda 1 milyon 200 min yeni iş yeri açılmışdır. Onların böyük hissəsi bölgələrin payına düşür. Bu, həm bölgələrdə gedən canlanmaya müsbət təsir göstərir, şəhərlərə miqrasiya meyillərinin qabağını alır, yerli istehsalın artımına imkan yaradır, həm də idxaldan asılılığımızı azaldır».*

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

Azərbaycan iqtisadiyyatı üçün uğurla nəticələnmiş 2013-cü ildə işsizliklə bağlı problemlərin həllində də müsbət tendensiya qeydə alınmışdır. İl ərzində 110 min yeni iş yeri açılmışdır ki, onlardan 80 mini daimi iş yeridir. Azərbaycan hökumətinin həyata keçirdiyi sosial-iqtisadi siyasət nəticəsində işsizliyin səviyyəsi 5%-ə qədər azalmışdır. 2012-ci illə müqayisədə işləyənlərin orta aylıq əməkhaqqı 6,2% artaraq 423 manat, pullu xidmətlərin həcmi isə 8,2% artaraq 6,5 milyard manat olmuşdur. Ölkəmizdə yoxsulların sayı əhəmiyyətli dərəcədə azalaraq 5,3%-ə enmişdir.

Makroiqtisadi sabitliyin qorunub saxlanılması, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun və regionların inkişafı ilə bağlı dövlət proqramlarının həyata keçirilməsi nəticəsində yeni müəssisələrin də sayı artmışdır. Yeni müəssisələrin yaradılması isə yeni iş yerlərinin açılması, vergi daxilolmalarının həcminin artması deməkdir. Özəl bölmənin inkişafı üçün yaradılmış azad rəqabət və əlverişli investisiya mühiti 2013-ci ildə ölkədə 7879 hüquqi şəxsin yaradılması ilə nəticələnmişdir.

Dövlət Statistika Komitəsinin məlumatlarına görə, qeydiyyatdan keçmiş hüquqi şəxslərin 211-i dövlət mülkiyyətinə, 6-sı bələdiyyə mülkiyyətinə, 6956-sı xüsusi mülkiyyətə, 568-i tam xarici investisiyalı, 138-i isə birgə müəssisələrə aid olmuşdur. Yeni müəssisələrin 54,5%-i Bakıda, 12,6%-i Aran, 6,5%-i Abşeron, 7%-i Gəncə-Qazax iqtisadi rayonlarında, qalanları isə digər bölgələrdə qeydiyyatdan keçmişdir.

Ötən il ərzində 65079 fiziki şəxs qeydiyyatdan keçmişdir. Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər daha çox Bakıda, Aran, Gəncə-Qazax, Lənkəran, Abşeron və Şəki-Zaqatala iqtisadi rayonlarında qeydiyyata alınmışlar.

Vergilər Nazirliyindən verilən məlumata görə, ümumilikdə ötən il ərzində 72 min 984 vergi ödəyicisi, o cümlədən elektron qaydada 30 min 791 (42,2%) vergi ödəyicisi qeydiyyata alınmışdır. 1 yanvar 2014-cü il tarixədək qeydiyyata alınan vergi ödəyicilərinin ümumi sayı 537 min 828-ə catmışdır. Bununla da il ərzində vergi ödəyicilərinin sayı 11,6 % artmışdır.

Həm fiziki, həm də hüquqi şəxslərin dövlət qeydiyyatının Vergilər Nazirliyi tərəfindən elektron qaydada, «bir pəncərə» sistemi vasitəsilə həyata keçirilməsi sahibkarların və ümumilikdə ictimaiyyətin razılığı ilə qarşılanır.

**Rəşad SADIQOV**

**2013-cü ildə qeydiyyatdan keçmiş hüquqi şəxslər**




# Mərkəzi Bank kreditləşmə ilə bağlı tələbləri sərtləşdirdi

### Məqsəd məsuliyyətli kreditləşməyə nail olmaq və kommersiya banklarını mümkün risklərdən qorumaqdır

*Respublika banklarının müxtəlif təyinatlı kredit təkliflərinin çoxalması, mütəmadi elan edilən kredit kampaniyaları müsbət tərəfləri ilə yanaşı, müəyyən haqlı suallar da doğurur. Söhbət arayışsız və girovsuz, yalnız şəxsiyyət vəsiqəsi ilə təklif olunan kreditlərin geri qaytarılmasında yarana biləcək çətinliklərdən gedir. Müşahidələr göstərir ki, artıq bəzi banklar müştəri cəlb etmək xatirinə elan etdikləri bu cür kampaniyaların girovuna çevrilməyə başlayıblar.*

Vaxtı ötmüş kiçik həcmli istehlak kreditlərinin geri qaytarılması üçün çevik və həm də optimal mexanizmlərin olmaması vəziyyəti bir qədər də çətinləşdirir. Azərbaycan Mərkəzi Bankının (AMB) 2014-cü il üçün pul və maliyyə sabitliyi siyasətinin əsas istiqamətləri barədə bəyanatına əsasən, hazırda real sektorun və əhalinin bank sisteminə vaxtı keçmiş borclarının xüsusi çəkisi 5,3% səviyyəsindədir və bunun da yarısı banklar tərəfindən yaradılmış ehtiyatlarla örtülür. Təkcə 2013-cü ildə istehlak kreditlərinə tələbatın 2012-ci illə müqayisədə 40%-ə yaxın artması real mənzərəni bir daha göz önünə gətirir.

Bunu nəzərə alan Azərbaycan Mərkəzi Bankı pul siyasəti ilə bağlı bəyanatında 2014-cü ildə «məsuliyyətli kreditləşmə» prinsipinin tətbiqi üzrə tədbirlərin həyata keçiriləcəyini bəyan etmişdi. Sənəddə qeyd olunurdu ki, bu il ərzində kredit portfelinin keyfiyyətinin qorunması və yaxşılaşdırılması məqsədilə tədbirlər gücləndiriləcək. Əhalinin ödəniş qabiliyyəti və istehlak kreditləşməsi arasında tarazlığın qorunması üçün yeni tənzimləmə tələbləri müəyyənləşdiriləcək: «Kreditləşmədə «borcun gəlirə» nisbəti əmsalı tətbiq olunacaq və Mərkəzi Bank tərəfindən bu əmsal üzrə maksimum hədd müəyyən ediləcəkdir. Bununla yanaşı, banklar tərəfindən «məsulliyyətli kreditləşmə» üzrə siyasət çərçivəsi tətbiq olunacaqdır. Siyasət çərçivəsində banklardan istehlakçılarla müvafiq davranış prinsiplərinə riayət edilməsi, istehlakçılara gəlirlərinə uyğun məhsulların təqdim olunması, onlara məhsulların qiyməti ilə bağlı düzgün və dolğun məlumatların açıqlanması ilə bağlı tələblər sərtləşdiriləcəkdir».

Bəyanatda əksini tapmış tədbirlərin reallaşdırılması isə özünü çox gözlətmədi: AMB bu günlərdə ölkənin kommersiya banklarına iş yerindən arayış təqdim etməyən müştərilərə kredit verilməsini qadağan edən təlimat xarakterli məktub göndərib. Bankdan bildirilir ki, gəlirləri təsdiq edən sənədin tələb olunması heç də yeni addım deyil. Bankların iş yerindən arayış olmadan müştərilərə istehlak kreditləri verməsi «Banklarda kreditlərin verilməsi Qaydaları»nın 4.1.7 və 4.1.8-ci bəndlərinin tələblərini pozur. Hesab olunur ki, müştərilərin maliyyə vəziyyətinin dəqiq qiymətləndirilməməsi bankların kredit portfelində riskli müştəri bazasının artmasına, son nəticədə sistem risklərinin yaranmasına səbəb ola bilər.

Qərardan göründüyü kimi, Mərkəzi Bank istehlak kreditləşməsinin məhdudlaşdırılmasına deyil, həm bankların, həm də müştərilərin məsuliyyətinin artırılmasına çalışır. Yəni kreditləşmə zamanı mümkün risklər nəzərə alınmalı, vətəndaşın kredit üzrə aylıq faizləri və əsas borc məbləğini qaytarmaq imkanları araşdırılmalı, risk qrupuna aid müştərilərlə iş düzgün qurulmalıdır. Bu gün evdar qadınlara, ahıl pensiyaçılara 10 min manatadək kredit təklif edən, eləcə də digər banklardan götürülmüş çoxsaylı kreditləri qaytarmaq üçün bir irihəcmli kreditləşmə təklif edən bankların mövcudluğu AMB-ni tələbləri sərtləşdirməyə sövq edib.

Avtomobillərin kreditlə satışına məhdudiyyət qoyulması ilə bağlı yayılan məlumatlara gəldikdə, Mərkəzi Bank tərəfindən belə bir rəsmi qərarın olmadığı bildirilir. Lakin iqtisadçı ekspertlər minik avtomobillərinin kreditlə satışı zamanı əksər hallarda müştərilərdən gəlirlər haqqında heç bir sənədin istənilməməsinin sonradan ciddi problemlərə rəvac verdiyini bildirirlər. Qeyri-sabit, davamlı olmayan gəlir hesabına avtomobil almaq istəyən vətəndaşlar kreditləri qaytara bilmədikdə bankların girovunda olan avtomobillə vidalaşmaq məcburiyyətində qalırlar.

İqtisadi Təşəbbüslərə Yardım İctimai Birliyinin eksperti Samir Əliyev hesab edir ki, AMB-nin bu qərarı bank sektorunun maliyyə sabitliyinə və dayanıqlıq potensialının gücləndirilməsinə, eləcə də risklərin minimallaşdırılmasına yönəlmiş siyasətin tərkib hissəsidir. Onun fikrincə, məqsəd sabit makroiqtisadi vəziyyətdə banklarda aktivlərin artım hədəfləri ilə dayanıqlıq hədəfləri arasında optimal tarazlığın təmin olunmasıdır.

Ekspertin sözlərinə görə, istehlak kreditləri üzrə risklərin preventiv tənzimlənməsi mühüm istiqamət kimi nəzərdən keçirilir: «Hazırkı şəraitdə bankların ehtiyatsız kreditləşmə siyasəti aparmasının doğura biləcəyi risklər əvvəlcədən nəzərə alınır. Eyni zamanda, bu, vətəndaşların özlərini də riskli kreditlərdən, son nəticədə əmlakın itirilməsi, sanksiyalarla üzləşmə və sair neqativ hallardan qoruyur».

*Kreditləşmə zamanı mümkün risklər nəzərə alınmalı, vətəndaşın kredit üzrə aylıq faizləri və əsas borc məbləğini qaytarmaq imkanları araşdırılmalı, risk qrupuna aid müştərilərlə iş düzgün qurulmalıdır*

**Samir MUSTAFAYEV**

# İqtisadi azadlıq səviyyəsi üzrə 7 pillə irəlidə...

*«The Heritage Foundation» təşkilatı dünya ölkələrində iqtisadi azadlıq səviyyəsini xarakterizə edən ənənəvi illik «İqtisadi Azadlıq İndeksi - 2014» hesabatını («2014 Index of Economic Freedom») açıqlayıb. Hesabat üzrə 80,2 - 100 bal iqtisadiyyatın tam azad, 70,7 - 78,7 bal - əsasən azad, 60,0 - 69,9 bal - orta azad, 50,0 - 59,9 bal - əsasən azad olmayan, 10 - 49,9 bal isə iqtisadiyyatın təzyiq altında olduğunu göstərir. Bununla yanaşı, iqtisadiyyatın müxtəlif sahələri - büdcə, maliyyə, fiskal, monetar siyasət, ticarət, biznes, investisiya indeksləri üzrə azadlıq göstəriciləri də müəyyənləşib.*

Hesabata əsasən, Azərbaycan son bir ildə iqtisadi azadlıq səviyyəsinə görə mövqeyini daha 7 pillə yaxşılaşdırıb və 100 ballıq qiymətləndirmə sistemi ilə 61,3 bala malikdir. Son bir ildə Azərbaycanın göstəricisi 1,6 bal yüksəlib və respublikamız «orta azad» ölkələr qrupuna daxil edilib. Bununla yanaşı, Azərbaycan bir sıra indekslər üzrə iqtisadi azadlığın ən yüksək şkalasında yer alıb. Məsələn, respublikamız büdcə azadlığı üzrə 88,1; pul siyasəti azadlığı üzrə 78,8; əmək azadlığı üzrə 77,9; ticarət azadlığı üzrə 77,2; biznes azadlığı üzrə 73,5 bal toplayıb ki, bu da MDB və Mərkəzi-Şərqi Avropa ölkələri arasında ən yaxşı göstəricilər hesab olunur.

«The Heritage Foundation» hesabatının müəlliflərinin fikrincə, maliyyə-büdcə-fiskal, monetar, biznes və investisiya sahələrində yüksək göstəricilərin əldə edilməsi Azərbaycanda həyata keçirilən mühüm iqtisadi islahatların nəticəsidir. Sənəddə ölkəmizin biznes sektorunda müsbət dəyişikliklərin baş verdiyi, göstəricilərin yaxşılaşdığı, ümumilikdə respublikada iqtisadi fəallıqla bağlı nikbin gözləntilərin müşahidə edildiyi qeyd olunur. Bildirilir ki, qeyri-neft sektorunun bütün sahələrində iqtisadi artım müşahidə edilib. Ümumilikdə, istehsal sektorunda əhəmiyyətli artım meyilləri qeydə alınıb ki, bu da ölkədə biznes sektorunda inamın güclənməsinin təzahürüdür.

Təşkilatın ümumi qiymətləndirmə və yanaşma metodologiyasında azad biznes və investisiya siyasəti komponenti ən başlıca yer tutur, iqtisadi azadlığın əsas meyarları hesab olunur. Azərbaycan sahibkarlığa və biznesə yaradılan şəraitin səviyyəsinə görə 50-lik ölkələri qrupunda yer almaqla iqtisadiyyatın liberallaşdırılmasına xüsusi önəm verdiyini təsdiq edir. Biznesə inam və etibarın əsas göstəricilərindən biri sahibkarlığa başlayan şəxslərin qeydiyyatı və sahibkarlıq sektorunda şəffaflığın təmin olunması vəziyyəti ilə bağlıdır. Bura, həmçinin, lisenziyalaşdırma, tələb olunan sənədlərin sayı və digər komponentlər də daxildir.

İqtisadiyyat və Sənaye Nazirliyinin şöbə müdiri Zaur Qasımovun sözlərinə görə, Azərbaycanda sahibkarlığa, yerli və xarici iş adamlarına yaradılan şərait, rəqabət imkanları, antiinhisar qurumlarının biznesə dəstəyi müsbət nəticələrini verir. Bazar iqtisadiyyatının əsas prinsiplərindən olan azad biznes və özəl sektora dövlət dəstəyi kimi faktorlar ümumi inkişafın göstəricisinə çevrilir. Hökumətin təmin etdiyi sərbəst biznes mühiti ölkədəki azad sahibkarlığın inkişafını stimullaşdırır, ona geniş meydan verir. Biznesə müdaxilə hallarının qarşısının alınması ilə bağlı ən radikal addımlar atılır. Son bir ildə sahibkarların hüquqlarının müdafiəsi ilə bağlı qəbul edilmiş qanunlar, digər hüquqi aktlar da biznes mühitinin yaxşılaşmasında mühüm rol oynayır. Ölkə başçısının imzaladığı «Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında» fərman dövlətin bizneslə əlaqədar məqsədlərini açıq şəkildə ortaya qoyur.

Ölkənin iqtisadi azadlıq və rəqabəqabiliyyətlilik indeksinə təsir edən amillərdən ən başlıcası xarici investorların maraq dairəsində və qoyulan sərmayələrin həcmində də özünü göstərir. Son 20 ildə Azərbaycan iqtisadiyyatına cəlb olunan sərmayələrin ümumi həcmi 130 milyard dollara çatıb. Bunun da təxminən 55-60%-i xarici investorların payına düşür. 2013-cü ildə ölkə iqtisadiyyatına 12 milyard dollara yaxın xarici investisiya qoyulub. Əlverişli biznes mühiti ilə yanaşı, makroiqtisadi sabitlik, biznes sektorunda qanunvericiliyin təkmilləşdirilməsi, dövlət orqanlarının fəaliyyətinin yeni dövrün meyarlarına uyğun qurulması, dövlət-biznes münasibətlərinin tənzimlənməsi, iqtisadiyyatda korrupsiya yaradan halların qarşısının alınması, şəffaflıq, idxal-ixrac əməliyyatlarının sadələşdirilməsi, azad bazar, ticarətin liberallaşdırılması, şirkətlərin müstəqilliyi və digər sahələrdə də Azərbaycan irəliləyişlər əldə edib.

*Azərbaycan sahibkarlığa və biznesə yaradılan şəraitin səviyyəsinə görə 50-lik ölkələri qrupunda yer almaqla iqtisadiyyatın liberallaşdırılmasına xüsusi önəm verdiyini təsdiq edir*

**Elbrus CƏFƏRLİ**

# Dünya Bankı yeni proqnozunu açıqlayıb

*Bankın nəşr etdiyi «Qlobal iqtisadi perspektivlər» adlı məruzəsində bildirilir ki, 2014-cü ildə Azərbaycanda ümumi daxili məhsulun (ÜDM) artım tempi 5,3%; 2015-ci il üzrə 4,5%; 2016-cı ildə isə 3,9% təşkil edəcək.*

Dünya Bankının (DB) Azərbaycan üzrə meneceri Larisa Leşşenko bildirib ki, qarşıdakı ildə ölkənin sosial-iqtisadi vəziyyətinə dair proqnozlar nikbindir. Azərbaycanda son illərdə əhəmiyyətli dərəcədə müsbət göstəricilər və dayanıqlılıq müşahidə olunur. İqtisadiyyata kredit yönəldilməsi və pul kütləsi artıb, insanların maddi rifahı yaxşılaşıb. Dünya Bankının rəsmisi Azərbaycanda qeyri-neft gəlirlərinin, eləcə də büdcə gəlirlərində onların payının artmasını müsbət faktor kimi qiymətləndirib. Ortamüddətli perspektivdə qeyri-neft sektorunda artım tempinin fiskal siyasətə mühüm töhfə verəcəyinə və Azərbaycan iqtisadiyyatının neftdənkənar sahələr hesabına artacağına dair fikirlərini açıqlayan L.Leşşenkonun qənaətinə görə, qeyri-neft sektorunun illik 9% artımı gələcək inkişaf üçün əhəmiyyətli əsaslar yaradır. Hazırda Azərbaycanda bu göstəricinin 10% olması müsbət hadisədir.

Dünya Bankı ilə ötən müddət ərzində birgə əməkdaşlıq çərçivəsində respublikamızda biznes mühitinin yaxşılaşdırılması sahəsində qabaqcıl beynəlxalq təcrübənin təşviq olunması, sahibkarların öz hüquq və vəzifələri barədə biliklərinin artırılması, qabaqcıl təcrübənin tətbiq edilməsində onlara yardım göstərilməsi, institusional inkişaf və investisiya fəaliyyəti ilə bağlı layihələr həyata keçirilib. Bundan başqa, DB Azərbaycanda inzibati maneələrin aradan qaldırılması, şəffaflığın artırılması, biznesə başlama, lisenziyalaşdırma və icazələr kimi proseslərin səmərəliliyinin artırılması və müəssisələrdə yoxlama prosedurlarının təkmilləşdirilməsinə texniki dəstək göstərib. Qarşıdakı illərdə əməkdaşlıq strategiyasının əsas istiqamətləri iqtisadiyyatın neftdən asılılığının azaldılması, insan kapitalı, biznes mühiti, maliyyə sektoru, iqtisadi inkişafın davamlılığı və digər aktual məsələləri əhatə edir.

Dünya Bankı son illər Azərbaycanda elektron xidmətlərin tətbiqinin daha müsbət nəticələrə səbəb olmasına da diqqət çəkir. Təşkilat bu amili nəzərə alaraq ölkəmizi biznesin elektron qeydiyyatının tətbiqinin genişləndirilməsi (biznesə başlama) göstəricisi üzrə ilk dəfə olaraq dünya üzrə ilk onluğa daxil edib. Həmin istiqamət üzrə yüksək nəticə əldə olunmasına biznes sektorunun bütün parametrləri - şəffaf biznes mühiti, sahibkarlıq fəaliyyətinin inkişafı üçün mühüm stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi, rəqabətliliyin möhkəmlənməsi, yerli və xarici investorların hüquqlarının qorunması, sahibkarların maliyyə-kredit qurumlarına və xarici bazarlara çıxış imkanları və digər sub-indikatorların yaxşılaşması zəmin yaradıb.

Qeyd edək ki, Dünya Bankının hesabat və icmallarında ölkəmizin vergi sistemində aparılan islahatlar da təqdir olunur. Azərbaycanda iqtisadi inkişafın təmin olunmasında vergi sisteminin rolunun böyük olduğunu bəyan edən Dünya Bankının rəsmisi ölkəmizdə həyata keçirilən vergi siyasətinin biznes mühitinin yaxşılaşmasına, qeyri-neft sektorunun inkişafını təmin edilməsinə, büdcə gəlirlərinin həcminin artırılmasına töhfə verdiyi qənaətindədir. Ölkə iqtisadiyyatında baş verən keyfiyyət dəyişiklikləri, iqtisadi idarəetmənin müasir dövrün tələblərinə uyğun yenidən qurulması, innovativ islahatların həyata keçirilməsi, qabaqcıl texnologiyaların iqtisadiyyatın bütün sahələrində tətbiq olunması vergi sektorunda da əhəmiyyətli dəyişikliklərin baş verməsinə səbəb olub.

Azərbaycanın vergi sistemində aparılan islahatlar vergi bazasının genişləndirilməsi, inzibatçılığın təkmilləşdirilməsi, xərclərin azaldılması baxımından əhəmiyyətlidir və perspektiv üçün geniş imkanlar açır. Təbii ki, vergitutma bazasının genişləndirilməsi iqtisadiyyatın qeyri-neft sektoru ilə bağlı sahələrdən daxil olan vergilərin həcminin artmasına əlverişli zəmin yaradır. Büdcə daxilolmalarında qeyri-neft vergi gəlirlərinin payının artması ümumilikdə büdcə zərfi və icmal büdcənin həcminin artması üçün münbit zəmin yaradır.

Ölkəmizin iqtisadi strategiyasında əsas istiqamətlərdən biri büdcənin gəlirlər hissəsinin tamamilə qeyri-neft sektoru üzrə vergi daxilolmaları hesabına formalaşdırılmasının təmin edilməsidir. Məhz bu məqsədlə vergitutma bazasının genişləndirilməsi müasir dövrün başlıca tələblərindəndir.

**Elbrus CƏFƏRLİ**

# Ötən il iqtisadiyyata rekord həcmdə investisiya cəlb olunub

*«Heç vaxt il ərzində bu qədər investisiya qoyulmayıb. Son bir neçə il ərzində orta hesabla 20-21-22 milyard dollar investisiya qoyulurdu, artıq 28 milyard dollar investisiya qoyulur. Onun 17,5 milyard dolları daxili sərmayədir. Bu da artıq neçə ildir ki, davam edən tendensiyadır. Daxili sərmayə xarici sərmayəni üstələyir. Bu, hesab edirəm ki, müsbət haldır. Əlbəttə ki, daxili sərmayənin içində əsas sərmayə dövlət sərmayəsidir. Ancaq özəl sektor da Azərbaycan iqtisadiyyatına böyük yatırımlar edir».*

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

Azərbaycanın son illərdə dinamik inkişafını təmin edən başlıca amillərdən biri də məhz milli iqtisadiyyatın şaxələndirilməsi siyasətinin uğurla həyata keçirilməsi, habelə prioritet istehsal sahələrinin uzlaşdırılması, inkişaf potensialının qarşılıqlı kömək mexanizmi əsasında realizə edilməsidir. Bir sıra dövlətlərin təcrübəsində uğurla sınaqdan çıxmış, özünü doğrultmuş bu iqtisadi strategiya neftdən əldə olunan gəlirlərin qeyri-neft sektoruna, istehsal sahibkarlığının inkişafına yönəldilməsini, özəl sektorun ümumi daxili məhsulda xüsusi çəkisinin artırılmasını nəzərdə tutur.

Həyata keçirilən tədbirlər Azərbaycanın investisiya cəlbediciliyi baxımından da üstünlüyünü təmin edir. 2013-cü ildə ölkə iqtisadiyyatına qoyulan sərmayələrin həm kəmiyyət, həm də keyfiyyət baxımından kəskin artımı Azərbaycanda yerli və xarici sərmayələri stimullaşdıran makroiqtisadi mühitin mövcudluğunu bir daha təsdiqləyir. Sahibkarlıq mühitinin sağlamlaşdırılması, biznesə başlama prosedurlarının sadələşdirilməsi, iş adamlarına dövlətin güzəştli kreditlərindən geniş istifadə imkanlarının yaradılması və digər mühüm tədbirlər iqtisadiyyata investisiya qoyuluşlarının həcminə və strukturuna müsbət təsirini göstərir.

İnvestisiya cəlbediciliyinə təsir göstərən mühüm amillər arasında iqtisadiyyatın şaxələndirilməsi, sahibkarlığın inkişafı və sənaye potensialının gücləndirilməsi tədbirləri xüsusi yer tutur. Bunun nəticəsi olaraq, 2010-cu ildə ölkə iqtisadiyyatına 17,6, 2011-ci ildə 21,6, 2012-ci ildə 25,8 milyard dollar investisiya qoyulub. Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 2013-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2014-cü ildə qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş iclasında vurğuladığı kimi, ötən il respublika iqtisadiyyatına investisiya qoyuluşları rekord səviyyədə artaraq 28 milyard dollara yüksəlib: «Heç vaxt il ərzində bu qədər investisiya qoyulmayıb. Son bir neçə il ərzində orta hesabla 20-21-22 milyard dollar investisiya qoyulurdu, artıq 28 milyard dollar investisiya qoyulur. Onun 17,5 milyard dolları daxili sərmayədir. Bu da artıq neçə ildir ki, davam edən tendensiyadır. Daxili sərmayə xarici sərmayəni üstələyir. Bu, hesab edirəm ki, müsbət haldır. Əlbəttə ki, daxili sərmayənin içində əsas sərmayə dövlət sərmayəsidir. Ancaq özəl sektor da Azərbaycan iqtisadiyyatına böyük yatırımlar edir».

İnvestisiyaların yüksək artım tempi 2013-cü ildə qeyri-neft sektorunun 10%, ümumi daxili məhsulun isə 5,8% artımını (57,7 milyard manat) təmin edib. Bu göstəricilər hökumətin investisiyaların şaxələndirilməsi sahəsində yürütdüyü siyasətin səmərəliliyini, neftdən əldə olunan gəlirlərin qeyri-neft sektoruna, istehsal sahibkarlığının inkişafına yönəldilməsini, özəl sektorun ümumi daxili məhsulda xüsusi çəkisinin artımını təmin edir.

Hesabat dövründə respublikanın iqtisadi resurslarından düzgün və məqsədyönlü istifadə edilməsi, real sektorun dəstəklənməsi, sənayeləşmənin stimullaşdırılması, maliyyə-bank sektorunun fəaliyyəti üçün daha əlverişli şəraitin yaradılması, vergi mühitinin liberallaşdırılması tədbirləri də ölkənin investisiya cəlbediciliyinin yüksəlməsinə öz təsirini göstərib. Bu baxımdan, Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərin əhəmiyyətini də xüsusi vurğulamaq lazımdır. Hökumətin tətbiq etdiyi vergi rejimi investisiya qoyuluşlarının həcminə və aktivliyinə bilavasitə təsir göstərir. Vergi Məcəlləsində vergilərin sahibkarlıq fəaliyyətini və investisiyaları təşviq etməsi vergitutmanın əsas prinsiplərindən biri kimi müəyyən olunub. İnvestisiyaların təşviqi məqsədilə Vergi Məcəlləsində mənfəət, gəlir vergiləri və ƏDV üzrə müəyyən güzəşt və azadolmalar mövcuddur.

**İnvestisiya qoyuluşunun artım dinamikası (mlrd. $)**




Əgər əvvəllər ölkə iqtisadiyyatına investisiyalar əsasən neft-qaz sektoruna yatırılırdısa, indi əcnəbi iş adamları daha çox qeyri-neft sektorunun sənaye texnoparklarına, İKT, turizm və digər sahələrinə maraq göstərirlər. 2013-cü ildə dövlət əsaslı vəsait qoyuluşunun 7 milyard manat təşkil etməsi də ölkədə dinamik inkişafın təmin edilməsinə imkan yaradıb. Sosial-mədəni və məişət təyinatlı obyektlərin tikintisi və yenidən qurulmasına 2 milyard 37 milyon manat, enerji, su və qaz təchizatı, nəqliyyat, kommunal, meliorasiya və digər infrastrukturların tikintisi və yenidən qurulmasına 3 milyard 743 milyon manat, Naxçıvan Muxtar Respublikasında həyata keçirilən investisiya layihələrinin maliyyələşdirilməsinə 262 milyon manat, digər layihələrin maliyyələşdirilməsinə isə 873 milyon manat vəsait xərclənib.

Ölkədə yol, su təchizatı və meliorasiya, kənd təsərrüfatına, sosial və digər infrastrukturların tikintisinə və yenidən qurulmasına xaricdən cəlb olunmuş kreditlər hesabına təxminən 754 milyon manat məbləğində vəsait sərf edilib. Dövlət Neft Fondunun vəsaiti hesabına ölkədə və xaricdə həyata keçirilən bir sıra investisiya layihələrinin icrası üçün 1 milyard 74 milyon manat vəsait ayrılıb. Şəhər, rayon və qəsəbələrdə abadlıq və quruculuq işlərinin davam etdirilməsi, kəndlərarası yolların tikintisi və digər zəruri tədbirlərin maliyyələşdirilməsi ümumilikdə infrastrukturun müasirləşməsinə, investisiyaların artımına təkan verib. Hesabat ilində regionların sosial-iqtisadi inkişafında sürətli dinamika təmin edilib, bütövlükdə bölgələrdə 380-dən çox sənaye, kənd təsərrüfatı, xidmət və ticarət müəssisəsi fəaliyyətə başlayıb.

İnvestisiyaların həcminin ilbəil artımı həm də uzunmüddətli perspektivdə dinamik inkişafı təmin etməyə hesablanıb. TANAP, Bakı-Tbilisi-Qars, Ələt Dəniz limanı, Şahdağ turizm mərkəzi və digər bu kimi iri infrastruktur və kommunikasiya layihələri yaxın perspektivdə ölkə büdcəsinə vergi daxilolmalarının artımını təmin etmək məqsədi güdür.

**S.MUSTAFAYEV**

# Fərdi uçot sistemində qeydiyyatda olanların sayı artıb

*Azərbaycan Respublikası qanunvericiliyinə uyğun əmək pensiyalarının və digər sosial müdafiə hüquqlarının təmin edilməsi üçün hər bir sığortaolunan haqqında məlumatların uçotunun təşkili və aparılması fərdi uçot sistemi əsasında həyata keçirilir.*

2006-cı il yanvarın 1-dən tətbiq olunan «Əmək pensiyaları haqqında» Azərbaycan Respublikasının Qanununa görə, ölkədə əmək pensiyaları ödənilmiş məcburi sosial sığorta haqlarına əsasən təyin olunur. Bu isə pensiya məbləğini sosial sığorta haqlarının vaxtında ödənilməsindən birbaşa asılı edir. Bununla bağlı sığortaolunanlar sığortaedənlə əmək müqavilələrinin bağlanılmasında və sosial sığorta haqlarının ödənilməsində maraqlı olmalı, gələcəkdə normal pensiya almaq üçün daha çox sosial sığorta haqqı ödənilməsinə çalışmalıdırlar.

Sığortaolunanın fərdi hesabı dedikdə, dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanı tərəfindən hər bir sığortaolunana uçot dövründə daimi sosial sığorta nömrəsi ilə açılmış şəxsi hesab başa düşülür ki, bu hesab iki hissədən: sığorta və yığım hissəsindən ibarətdir. Fərdi hesabın sığorta hissəsində müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş nisbətlərə uyğun olaraq sığortaolunanlar üzrə ödənilmiş və əmək pensiyasının sığorta hissəsinin hesablanması üçün nəzərə alınan məcburi dövlət sosial sığorta haqları qeydə alınır. Fərdi hesabın yığım hissəsində müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş nisbətlərə uyğun olaraq, sığortaolunanlar üzrə ödənilmiş və əmək pensiyasının yığım hissəsinin hesablanması üçün nəzərə alınan məcburi dövlət sosial sığorta haqları, eləcə də bu vəsaitlərin dövriyyəsindən əldə edilən gəlirlər toplanılır. Beləliklə, fərdi hesabın sığorta hissəsində qeydə alınan və fərdi hesabın yığım hissəsində toplanan vəsaitlərin məbləği pensiya kapitalını təşkil edir.

2014-cü il yanvarın 1-nə olan statistikaya əsasən, ötən ilin əvvəli ilə müqayisədə Dövlət Sosial Müdafiə Fondunun fərdi uçot sistemində qeydiyyatda olan sığortaolunanların sayı 15,8% artıb. Ötən il ərzində DSMF tərəfindən əlavə olaraq 425 min 283 sığortaolunana sosial sığorta nömrəsi verilib və onlar üçün fərdi hesab açılıb. Nəticədə Azərbaycanda fərdi şəxsi hesaba malik sığortaolunanların sayı 2.691.357 nəfərə yüksəlib.

Yanvarın 1-nə olan məlumata əsasən, DSMF-nin fərdi uçot sistemində qeydiyyatda olan sığortaolunanların 58,7%-i kişi, 41,3%-i isə qadındır. Fərdi uçot sistemində qeydiyyatda olan sığortaolunanların 21,7%-ni 30 yaşa kimi; 24,1%-ni 30-40; 22,1%-ni 40-50; 21,4%-ni 50-60 yaşlı; 10,7%-i 60 yaşdan yuxarı olan vətəndaşlar təşkil edir. DSMF-nin fərdi uçot sistemində qeydiyyatda olan hər bir sığortaolunan özü üçün sosial sığorta haqlarının vaxtında və tam məbləğdə köçürülməsinə nəzarət etmək imkanına malikdir. Yəni istənilən sığortaolunan «Sığortaolunanlara məlumatların verilməsi» elektron xidməti vasitəsilə onun üçün işəgötürən tərəfindən hər ay ödənilən məcburi dövlət sosial sığortası barədə məlumatları maneəsiz əldə edə və illər üzrə öz pensiya kapitalını izləyə bilər. Ötən ilin statistikasına əsasən, vətəndaşların gələcək pensiya təminatında, şəffaflığın təmin olunmasında mühüm rola malik olan bu xidmət «Elektron hökumət» portalı vasitəsilə ən çox müraciət olunan elektron xidmətlar sırasındadır.

**Fərdi uçot sistemində qeydiyyatda olanların yaş nisbəti**




*Ötən il ərzində DSMF tərəfindən əlavə olaraq 425 min 283 sığortaolunana sosial sığorta nömrəsi verilib və onlar üçün fərdi hesab açılıb*

Azərbaycan Respublikası vətəndaşları ilə yanaşı, ölkə ərazisində əmək fəaliyyəti ilə məşğul olub gəlir əldə edən xarici vətəndaşlar da məcburi dövlət sosial sığorta haqlarının ödəyiciləri hesab olunurlar və həmin vətəndaşların DSMF-də uçotu, fərdi şəxsi hesabının açılması və sosial sığorta şəhadətnaməsinin verilməsi qaydaları Azərbaycan vətəndaşları üçün tətbiq olunan qaydalarla eynidir.

Ötən il ərzində DSMF-nin fərdi uçot sistemində qeydiyyata alınan əcnəbilərin sayı 18,8% artaraq 17.098 nəfərə yüksəlib, Fond tərəfindən əlavə olaraq 3222 nəfər əcnəbi vətəndaş qeydiyyata alınıb. Cari il yanvarın 1-i tarixinə olan statistikaya əsasən, əcnəbilərin 89,8%-ni kişilər, 10,2%-ni isə qadınlar təşkil edir. Ümumilikdə 100 ölkəni əhatə edən əcnəbilər arasında ən yüksək say göstəricisi Türkiyə, Gürcüstan və Rusiya vətəndaşlarına məxsusdur: hazırda sistemdə qeydiyyatda olan əcnəbilərin 9848 nəfərini Türkiyə, 1881 nəfərini Gürcüstan, 904 nəfərini isə Rusiya Federasiyasının vətəndaşları təşkil edir.

Qeyd edək ki, 2006-cı il yanvarın 1-dən Azərbaycan Respublikası mənbələrindən əmək ödənişi və məcburi dövlət sosial sığorta haqqına cəlb olunan digər gəlirləri əldə edən əcnəbilərin məcburi dövlət sosial sığortası ilə əhatə olunması prosesi həyata keçirilməkdədir.

**AYTƏN**

# Yaddaşımıza köçən insan...



*Amansız ölüm dostumuz və həmkarımız, tanınmış yazıçı-dramaturq və riyaziyyatçı alim, gözəl və səmimi insan, vergi maarifçiliyinin təşkili sahəsində diqqətəlayiq xidmətləri olan Aslan Qəhrəman oğlu Qəhrəmanovu sıralarımızdan aparmışdır. O, uzun sürən ağır xəstəlikdən sonra bu il yanvarın 20-də vəfat etmişdir.*

A.Qəhrəmanov 14 sentyabr 1939-cu ildə Ağstafa rayonunun Yenigün kəndində anadan olmuşdu. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsində təhsil almış, müxtəlif elm və təhsil müəssisələrində çalışmış, uzun illər indiki Azərbaycan Dövlət Neft Akademiyasında, sonralar Azərbaycan Universitetində işləmiş, 2011-2012-ci illərdə bu universitetin rektoru olmuşdu. Fizika-riyaziyyat elmləri üzrə fəlsəfə doktoru idi.

Ədəbi yaradıcılığa ötən əsrin 60-cı illərindən başlayan A.Qəhrəmanov Azərbaycan nəsrinin ən istedadlı nümayəndələrindən biri kimi tanınırdı. Ölkəmizin televiziya məkanında ilk çoxhissəli tamaşaya çevrilmiş «Səni axtarıram», «Bağışla» və «Səndən xəbərsiz» adlı telepyesləri ona böyük populyarlıq və şöhrət qazandırmışdı. Yazıçının müxtəlif illərdə səhnələşdirilmiş «Spektr», «Döngə», «Burulğan», «Bağışla» və s. televiziya pyesləri, radioda səsləndirilən 13 nağıl-pyesi də rəğbətlə qarşılanmışdı.

1985-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olan A.Qəhrəmanovun bədii əsərlərindən ibarət 12 kitabı işıq üzü görmüşdü. Ümumilikdə isə o, 26 bədii, elmi-publisistik kitabın və tədris vəsaitinin müəllifi idi.

Dərin biliyi və parlaq istedadı, geniş erudisiyası ilə seçilən A.Qəhrəmanov öz qələmini ölkəmizdə vergi maarifçiliyi sahəsində sınayan ilk yazıçı idi. Onun həmmüəlliflərindən biri olduğu «Vergilərin əhəmiyyəti və ya yeddi nağıl axşamı» adlı dərs vəsaiti orta ümumtəhsil məktəblərinin ibtidai sinif şagirdlərində vergilər haqqında ilkin təsəvvürlər yaradan sanballı nəşrdir. Orta məktəblərin III-V və VI-VIII sinif şagirdləri üçün «Vergilər» adlı dərs vəsaitlərinin, həmçinin «Vergi mədəniyyəti» və «Vergi ensiklopediysı» kitablarının da ara-ya-ərsəyə gəlməsində həmmüəlliflərdən biri kimi yazıçı-alim böyük əmək sərf etmişdi.

Aslan müəllim Vergilər Nazirliyinin təsis etdiyi «Azərbaycanın vergi jurnalı»nın yaradıcılarından biri və ilk baş redaktoru (2003-2010-cu illər) olmuşdu. Onun rəhbərliyi ilə jurnal ölkəmizdə vergi maarifçiliyi, vergi mədəniyyətinin təbliği işinin fəal iştirakçısı kimi cəmiyyətdə özünəməxsus yer tutmuş, vergilər sahəsində strateji və elmi-konseptual araşdırmaların stimullaşdırılmasında mühüm rol oynamışdı.

A.Qəhrəmanov 2010-cu ildə «Azərbaycan Respublikası Vergilər Nazirliyinin 10 illiyi (2000-2010)» yubiley medalı ilə təltif edilmişdi.

Aslan müəllim dürüstlüyü və səmimiliyi ilə həmkarlarının, dostlarının, onu yaxından tanıyan hər kəsin böyük sevgisini və ehtiramını qazanmışdı. O, yüksək mənəvi-əxlaqi keyfiyyətləri ilə gənclərə örnək olan bir şəxsiyyət idi. Bu unudulmaz insanın işıqlı və əziz xatirəsi daim qəlbimizdə yaşayacaqdır...

**Allah rəhmət eləsin!**

# Təmassız ödəniş kartları

## Mərkəzi Bank bu sistemin tətbiqini genişləndirməyi diqqətdə saxlayır

Dünyada rahat və təhlükəsiz ödəniş vasitəsi hesab edilən nağdsız ödənişlərin əhatə dairəsi durmadan genişlənir. Artıq dünya əhalisinin böyük əksəriyyəti vəsaiti cibdə deyil, plastik kartda saxlamağa üstünlük verir. Çünki təcrübə göstərir ki, plastik kartda saxlanılan vəsait cibdə və ya digər vasitələrdə saxlanılan vəsaitdən daha etibarlı və qorunandır. Pul vəsaitinin ödəniş kartında saxlanılmasının daha rahat və təhlükəsiz olması, şəxsi büdcənin səmərəli formada planlaşdırılması, dünyanın milyonlarla ticarət mərkəzlərində məhsul və xidmətlərin dəyərinin ödənilməsi, habelə bankomat, kommersiya banklarının filial və şöbələrində quraşdırılmış POS-terminal şəbəkəsi vasitəsi ilə nağd pul vəsaitinin əldə edilməsi, səyahət zamanı nağd pulla bağlı ehtiyacların ödənilməsi və s. kimi üstünlüklərə malik olması plastik kartların populyarlığını artırır. Vəsaitin kartda olması gömrük sərhədini keçərkən deklarasiya zərurətini də aradan qaldırır. Ödəniş kartının itirilməsi və ya oğurlanması halları baş verərkən isə emitenti vaxtında məlumatlandırıb pul vəsaitlərindən istifadənin qarşısını almaq mümkündür.

Əhatə dairəsinə görə lokal ödəniş kartı yalnız ölkə ərazisi daxilində istifadə üçün emissiya edilir. Beynəlxalq ödəniş kartı isə beynəlxalq kart təşkilatlarının (VISA, «MasterCard», «American Express» və s.) üzvü olan yerli və ya xarici banklar tərəfindən emissiya edilmiş, beynəlxalq kart təşkilatlarının loqotipini daşıyan, ölkə daxilində və ölkədən kənar əməliyyatların aparılması üçün istifadə olunan kartdır.




Əməliyyatların aparılmasına görə kartlar əsasən debet və kredit kartlara, özündə informasiya daşımasına görə isə mikrosxemli (çipli), maqnit lentli və hibrid kartlara bölünür.

Hazırda ölkəmizdə banklar tərəfindən beynəlxalq kart təşkilatlarından «Visa İnc», «MasterCard Worldwide», «American Express», «Dinners Club» kimi təşkilatlara məxsus beynəlxalq ödəniş kartları və həmçinin lokal ödəniş kartları emissiya olunur. İndi Azərbaycanda kontaktsız və ya təmassız ödəniş vasitələri də inkişaf mərhələsindədir. Kontaktsız ödəniş kartı dedikdə, daxilində radiotezlikli identifikator quraşdırılmış kart nəzərdə tutulur. Kart istifadəçisi təmassız ödəniş kartını POS-terminala yaxınlaşdırmaqla əməliyyatı həyata keçirə bilir. Təmassız ödəniş kartları ilə aparılan əməliyyatlar üzrə müəyyən məbləğə qədər kart istifadəçisinin imzası və ya PİN-kodun daxil edilməsi tələb olunmaya bilər. Bu kartlar ilə aparılan əməliyyatlar üzrə təsdiqedici sənəd məcburi qaydada deyil, müştərinin istəyi əsasında təqdim olunur.

Mərkəzi Bankdan bildirildiyinə görə, təmassız ödəniş kartlarının tətbiqinin genişləndirilməsi diqqətdə saxlanılır. Bu sahədə hüquqi bazanın formalaşdırılması məqsədi ilə Mərkəzi Bank tərəfindən «Ödəniş kartlarının emissiyası və istifadəsi Qaydaları»na zəruri dəyişikliklərlə bağlı layihə hazırlanır. Bununla yanaşı, beynəlxalq kart təşkilatları ilə qarşılıqlı əməkdaşlıq çərçivəsində bankların və kart-prosessinq mərkəzlərinin bu sahədə çalışan nümayəndələri üçün mövcud beynəlxalq təcrübə haqqında seminarlar da təşkil edilir.

Mərkəzi Bankdan onu da bildirirlər ki, hazırda ölkədə «Bank of Azerbaijan» ASC tərəfindən ictimai nəqliyyatda istifadə üçün təmassız ödəniş kartlarının emissiyasına başlanılmışdır. Bu kartlar beynəlxalq kart təşkilatlarının brendi altında emissiya olunur. Kart istifadəçisi təmassız ödəniş kartını avtobuslarda quraşdırılmış ödəniş terminalına yaxınlaşdıraraq nəqliyyatda tətbiq olunan tarifə əsasən ödənişi həyata keçirəcək.

**AYTƏN**

# Beynəlxalq uçotun aparılmasında tətbiq olunan qaydalar

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

**3-cü MƏRHƏLƏ**

Baş kitabı işləmək. Baş kitabın işlənməsi üçün əvvəlcə əməliyyat jurnalında yazılışlar edilir. Əməliyyat jurnalında ikili yazılışların verilməsini hesablar planında göstərilən hesab adlarına uyğun olaraq həyata keçirmək lazımdır. Əməliyyatları tarix ardıcıllığı ilə davamlı olaraq əməliyyat jurnalına işlədikcə bərabər surətdə baş kitaba da işləmək lazımdır. Məqsəd hər bir əməliyyatla bağlı məbləğ informasiyalarının müvafiq balans hesablarında saxlanılmasını təmin etmək və hər bir hesab daxilində baş verən əməliyyatlar üzrə hərəkəti ümumi şəkildə görməkdir. Hesabın hərəkəti dedikdə, hesabat dövründə hesaba daxil olan (artan) və hesabdan çıxan (azalan) məbləğlər üzrə dövriyyələr, həmçinin hesab üzrə dövrün əvvəlinə və hər bir əməliyyatdan sonra hesabın son qalığı başa düşülür.

Baş kitabda hər bir balans hesabı üzrə səhifə açılır. Praktikada, adətən, aşağıdakı göstəriciləri özündə əks etdirən baş kitabdan istifadə edirlər *(Bax: Cədvəl 1)*.

**Misal.** Mebel istehsalı ilə məşğul olan müəssisənin milli valyutada bank hesabında 2000 manat pul vəsaiti vardır. 07.01.2014-cü il tarixdə bankdan alınan 10000 manat qısamüddətli kredit mebel istehsalı ilə məşğul olan müəssisənin milli valyutada bank hesabına daxil edilmişdir. Həmin tarixdə də müəssisə tikinti malları satan obyektdən material kimi istifadə etmək məqsədilə 8000 manat dəyərində taxta almış və 10.01.2014-cü il tarixdə taxtanın dəyərinin 6000 manatını milli valyutada bank hesabından ödəmişdir.

Göründüyü kimi, burada 3 əməliyyat baş vermişdir və bu əməliyyatlar hesablar planının 4 hesabına - «Milli valyutada bank hesabı», «Qsamüddətli bank krediti» «Malsatana olan kreditor borclar» və «Xammal və materiallar» hesablarına aşağıda göstərilən formada təsir edəcəkdir *(Bax: Cədvəl 2)*.

İndi isə əməliyyat jurnalındakı yazılışların baş kitaba köçürülməsini həyata keçirək *(Bax: Cədvəl 3, Cədvəl 4, Cədvəl 5, Cədvəl 6)*.

Cədvəl 1

HESABIN N-si və ADI

| Tarix | Əməliyyatın məzmunu | Dövriyyə | | Son qalıq | |
|---|---|---|---|---|---|
| | | *debet* | *kredit* | *debet* | *kredit* |
| | | | | | |
| | | | | | |

Cədvəl 2

| Tarix | Hesabın adı və əməliyyatın məzmunu | DEBET (*məbləğ*) | KREDİT (*məbləğ*) |
|---|---|---|---|
| 07.01.2014 | «Milli valyutada bank hesabı» «Bank krediti» Bankdan kredit alınmışdır | 10000 | 10000 |
| 07.01.2014 | «Xammal və materiallar» «Malsatana olan kreditor borclar» Malsatandan taxta alınmışdır | 8000 | 8000 |
| 10.01.2014 | «Malsatana olan kreditor borclar» «Milli valyutada bank hesabı» Alınmış taxtanın dəyərinin bir hissəsi ödənilib | 6000 | 6000 |

Cədvəl 3

MİLLİ VALYUTADA BANK HESABI
*hesabın adı*

| Tarix | Əməliyyatın məzmunu | Dövriyyə | | Son qalıq | |
|---|---|---|---|---|---|
| | | *debet* | *kredit* | *debet* | *kredit* |
| 07.01.2014 | Dövrün əvvəlinə qalıq: | | | 2000 | |
| 07.01.2014 | Bankdan kredit daxil olub | 10000 | | 12000 | |
| 10.01.2014 | Alınmış taxtanın dəyəri ödənilib | | 6000 | 6000 | |

Cədvəl 4

QISAMÜDDƏTLİ BANK KREDİTİ HESABI
*hesabın adı*

| Tarix | Əməliyyatın məzmunu | Dövriyyə | | Son qalıq | |
|---|---|---|---|---|---|
| | | *debet* | *kredit* | *debet* | *kredit* |
| 07.01.2014 | Dövrün əvvəlinə qalıq: | | | | 0 |
| 07.01.2014 | Kredit alınıb | | 10000 | | 10000 |

Cədvəl 5

MALSATANLARA OLAN KREDİTOR BORCLAR HESABI
*hesabın adı*

| Tarix | Əməliyyatın məzmunu | Dövriyyə | | Son qalıq | |
|---|---|---|---|---|---|
| | | *debet* | *kredit* | *debet* | *kredit* |
| 07.01.2014 | Dövrün əvvəlinə qalıq: | | | | 0 |
| 07.01.2014 | Taxta alınmışdır | | 8000 | | 8000 |
| 10.01.2014 | Alınmış taxtanın dəyərindən ödənilib | 6000 | | | 2000 |

Cədvəl 6

XAMMAL VƏ MATERİALLAR HESABI
*hesabın adı*

| Tarix | Əməliyyatın məzmunu | Dövriyyə | | Son qalıq | |
|---|---|---|---|---|---|
| | | *debet* | *kredit* | *debet* | *kredit* |
| 07.01.2014 | Dövrün əvvəlinə qalıq: | | | 0 | |
| 07.01.2014 | Taxta alınıb | 8000 | | 8000 | |

**Davamı növbəti sayımızda**

## vergi taqvimi

YANVAR

| I | II | III | IV | V | VI | VII |
|---|---|---|---|---|---|---|
| | | 1 | 2 | 3 | 4 | **5** |
| 6 | 7 | 8 | 9 | 10 | 11 | **12** |
| 13 | 14 | **15** | 16 | 17 | 18 | **19** |
| 20 | **21** | 22 | 23 | 24 | 25 | **26** |
| 27 | 28 | 29 | 30 | **31** | | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**
15 yanvar - «(1)», «(2)»
21 yanvar - «1-1», «3», «4», «8», «9», «10.1», «10.2», «10.3» və «11»
31 yanvar - «10.1»

**«(1) və (2)» - Gəlir və mənfəət vergisi:** Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.

Birinci metod: Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.

İkinci metod: Cari rübdəki gəlirin məbləği keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurulmaqla müəyyən edilir.

Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat verməediyi halda, vergi orqanı birinci metodu tətbiq edir.

Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı birinci metodu tətbiq edir.

Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir.

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) hesablanan gəlir vergisi barədə «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi» hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verməli və həmin müddətdə vergini dövlət büdcəsinə ödəməlidir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və həmin müddətdə vergi orqanına bəyannamə verilməlidir.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayıdır. Mədən vergisinin ödəyiciləri hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«9» - Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üçün hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxslər hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənməli olan verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyirlər.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür. Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür. Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqlarını ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür.

Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«11» - Dövlət rüsumu:** Dövlər rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.

«Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.

beynəlxalq panoram

# Fransada ekoloji vergi tətbiq edilir

*2013-cü il oktyabrın 1-dən Fransada ekoloji vergi qüvvəyə minib. Bu vergi Fransa ərazisində qeydiyyata alınmış bütün nəqliyyat vasitələrindən, eləcə də ümumi çəkisi 3,5 tondan çox olan və uzunluğu 15 min km-ə çatan milli və regional avtomobil yolları şəbəkəsindən istifadə edən xarici avtonəqliyyat vasitələrindən alınır.*

Yeni yığım avtonəqliyyat vasitəsinin vergi tutulan avtomobil yolları şəbəkəsindən keçdiyi məsafədən asılı olaraq hesablanır. Yığımın məbləği hər kilometr yola avtomobilin kateqoriyası əsasında müəyyənləşdirilir və nəqliyyat vasitələrinin ətraf mühitə atdığı qazların tərkibindəki çirkləndirici maddələrin səviyyəsindən (avrostandart) və coğrafi zonadan (bir sıra regionlar üçün güzəştlər müəyyən edilib) asılı olaraq dəyişə bilər. Avtomobillərin kateqoriyası yük nəqliyyat vasitələrinin yol verilən ümumi çəkisi və oxların sayına əsaslanaraq müəyyən edilir.

2013-cü il üçün dərəcələr belə olub: birinci kateqoriya (2 oxu və kütləsi 12 tondan az) üçün 8 avrosent/km; ikinci kateqoriya (kütləsi 12 ton və daha çox olan, 2 və ya 3 oxlu) üçün 10 avrosent/km; üçüncü kateqoriya (4 və daha çox oxa malik) üçün 14 avrosent/km.

2014-cü il üçün nəzərdə tutulmuş dərəcələr isə belədir: birinci kateqoriya (2 oxu və kütləsi 12 tondan az) üçün 8,8 avrosent/km; ikinci kateqoriya (kütləsi 12 ton və daha çox olan, 2 və ya 3 oxlu) üçün 11,1 avrosent/km; üçüncü kateqoriya (4 və daha çox oxa malik) üçün 15,4 avrosent/km.

Yığım nəqliyyat vasitələrinin bortunda quraşdırılan elektron avadanlıq vasitəsilə ödəniləcək. Bu məqsədlə Fransada yol yığımlarına cəlb edilən bütün yük avtomobilləri vergiyə cəlb edilən avtomobil yolları şəbəkəsindən istifadə edib-etməməsindən asılı olmayaraq, eləcə də yol yığımlarına və vergiyə cəlb edilən avtomobil yolları şəbəkəsindən istifadə edən bütün xarici yük avtomobilləri mütləq qaydada ekoloji vergiləri hesablamaq üçün məlumatların avtomatik qeydiyyatını təmin edən elektron qurğularla təchiz edilməlidir.

Yeni qanunvericiliyin tələblərinə əməl olunması və avtomobillərin qurğularla təchiz edilməsi məqsədilə vətəndaşlar nəqliyyat vasitəsini qeydiyyata salmalıdırlar. Qeydiyyatdan sonra ödəyici öz avtomobili üçün xüsusi qurğu almalıdır. Hər elektron qurğu yalnız qeydiyyata alınan nəqliyyat vasitəsinə verilir.

Vergidən yayınan ödəyicilər aşkar edildikdə, onlar həm hesablanmış məbləği, həm də 750 avro məbləğində cəriməni ödəməli olacaqlar. Təkrar pozuntuya yol verənlər üçün ödəniləcək məbləğ ikiqat artırılacaq.

# Yunanıstanda biznes strukturlarının yarısı vergidən yayınır



*Vergidən yayınma Yunanıstan sahibkarlarının gündəlik həyatının ayrılmaz hissəsinə çevrilib və onların bir çoxu real dövriyyələrini gizlədirlər.*

Yunanıstanın Maliyyə Nazirliyi bu yaxınlarda aparılan araşdırmaların nəticələrini açıqlayaraq bildirib ki, ölkədəki şirkətlərin ən azı yarısı bu və ya digər formada öz vergi öhdəliklərinin icrasından yayınır. Nazirliyin məlumatında göstərilir ki, ölkənin müxtəlif regionlarında 1465 şirkətdə aparılmış plandankənar vergi yoxlamaları zamanı vergi müfəttişləri 731 şirkətdə, ümumilikdə, 3904 müxtəlif qanun pozuntuları aşkarlayıb. Yunanıstanın maliyyə naziri Yannis Stournaras bildirib ki, əsas pozuntular sırasında nağd satışlar zamanı kassa çeklərinin vurulmamasıdır ki, bu da pərakəndə ticarətdə satış vergisinin gizlədilməsi və ya azaldılması məqsədini daşıyır.

Xarici ölkələrin vergi sistemi:

# Rusiya Federasiyası

**Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi**




*Böyük səkkizliy»in üzvü olan Rusiya Federasiyasında 2012-ci ildə ÜDM-in həcmi 2,0 trln. ABŞ dolları (dünya üzrə 8-ci), ÜDM-in real artım tempi isə 3,4% olmuşdur. Rusiyanın ÜDM-nin 60,1%-ni xidmət sahəsi, 36%-ni sənaye, 3,9%-ni kənd təsərrüfatı təşkil edir. Ölkədə emal sənayesi, xüsusilə kimya sənayesi, metal emalı, maşınqayırmanın bütün sahələri, avia-maşınqayırma, kosmik cihazlar, nüvə texnologiyası da daxil olmaqla müdafiə sənayesi, tibbi və elmi avadanlıqların istehsalı geniş inkişaf etmişdir. Minimum əməkhaqqı qanunvericilikdə 2013-cü il üzrə 5 205 Rusiya rublu (1 rubl= 0.0236 manat) müəyyən olunmuşdur.*

Rusiyada vergi və rüsumlar haqqında qanunvericiliyə riayət olunması, toplanan vergi və rüsumların düzgün, tam və vaxtında dövlət büdcəsinə köçürülməsinə nəzarəti Rusiya Federal Vergi Xidməti həyata keçirir. Maliyyə Nazirliyi tərkibində fəaliyyət göstərən xidmət öz fəaliyyətini funksional, vergi növləri və iri vergi ödəyiciləri seqmenti üzrə qurmuşdur. Xidmət tərəfindən idarə olunan əsas vergilər gəlir vergisi, mənfəət vergisi, ƏDV, mədən vergisi, aksizlər, əmlak vergisi və digər tədiyə növləridir.

Rusiyada ümumi bəyannamə sistemi mövcud olduğundan vergi ödəyicilərinin sayı 147,3 milyondur. ƏDV ödəyiciləri ümumi vergi ödəyicilərinin 1,2%-ni təşkil edir. Ümumilikdə Rusiya Federal Vergi Xidmətində 132 917 nəfər vergi əməkdaşı çalışır.

2012-ci ildə ümumi vergi daxilolmaları 352,7 mlrd. ABŞ dolları olmaqla, o cümlədən birbaşa vergilər 71,7%, dolayı vergilər 25,3%, digər daxilolmalar 3,0% təşkil etmişdir. Vergi daxilolmalarının 23%-ni mənfəət vergisindən daxilolmalar təşkil etmişdir. Mənfəət vergisi məqsədləri üçün ölkə qanunvericiliyinə əsasən təsis edilən müəssisələr rezident müəssisələr hesab olunur. Mənfəət vergisi ödəyicilərinə açıq birgə-səhmdar cəmiyyətlər, qapalı və açıq səhmdar cəmiyyətlər, məhdud məsuliyyətli və əlavə məsuliyyətli cəmiyyətlər, ümumi və məhdud ortaqlıqlar, sənaye kooperativləri daxildir.

Rezident müəssisələr dünya üzrə əldə etdikləri gəlirlərdən mənfəət vergisi ödəyirlər. Vergi tutulan mənfəət - müəssisənin ümumi sahibkarlıq gəlirlərindən sahibkarlıq məqsədilə çəkilən xərclər (istehsal xərcləri, əmək haqqı, amortizasiya və s. bu tip xərclər, müəssisənin saxlanma və təmir xərcləri, tədqiqat və araşdırma xərcləri, hasilat xərcləri, sığorta ödənişləri və digər maliyyə xərcləri) qədər azalmasından yaranan fərq hesab olunur.

2009-cu il 1 yanvar tarixdən mənfəət vergisinin ümumi dərəcəsi 20% təşkil edir. Bunun 2%-i federal büdcəyə, 18%-i isə regional büdcəyə ödənilir. Regionlar vergi ödəyicilərinin müəyyən kateqoriyasına güzəşt tətbiq edərək regional verginin faizini 13,5%-ədək azaltmaq hüququ vardır.

Müəssisənin mənfəət və ya zərərlə işləməsindən asılı olmayaraq amortizasiya ayrımaları icbaridir və aylıq baza üzrə hesablanır. Amortizasiya olunan aktivlər maddi və qeyri-maddi olmaqla istifadə müddəti 12 aydan, balans dəyəri 40 min rubldan çox olmalı və biznes məqsədləri üçün istifadə edilməlidir. Yalnız vergi ödəyicisinə məxsus olub sahibkarlıq məqsədilə istifadə edilən aktivlərin amortizasiyasına yol verilir. Dəyəri 40 min rubldan az olan aktivlər alındığı il ərzində birdəfəlik silinə bilər. İl ərzində 3 ay və daha artıq müddət ərzində istifadə olunmayan, həmçinin 12 aydan artıq müddətə modernizasiya olunan aktivlərin amortizasiya olunmasına yol verilmir.

Müəssisənin sahibkarlıq fəaliyyəti zamanı yaranmış zərər 10 il müddətində növbəti illərə keçirilə bilər. Müəssisənin yenidən təşkili zamanı yaranmış zərər yalnız onun hüquqi varisi tərəfindən növbəti illərə keçirilə bilər.

Müəssisələrin fəaliyyətinin stimullaşdırılması, yeni texnologiyaların tətbiqi, innovativ fəaliyyətin təşviqi məqsədilə müvafiq sahələrə vergi güzəştləri tətbiq olunur. Əsas vəsaitlərin alınması və ya onun modernizasiyası, yenidən qurulması və ya təmirinə çəkilən xərclərin 10%-i həmin ildə gəlirdən çıxıla bilər. Aqro-sənaye kompleksləri şəklində yenidən təşkil olunmuş quşçuluq, heyvandarlıq, xəz-dəri təsərrüfatları və istixanaların amortizasiya ayırmaları hesablanarkən Vergi Məcəlləsində nəzərdə tutulmuş amortizasiyalara xüsusi əmsallar tətbiq etmək (1-2-yə qədər) hüquqları vardır. Həmçinin müəssisələr araşdırma-tədqiqat fəaliyyəti ilə məşğuldursa və ya öz istehsal imkanlarını genişləndirərək gələcəkdə əlillər üçün yeni iş yerlərinin yaradılması, ətraf mühitin sənaye çirklənməsinin qarşısının alınması və enerji səmərəliliyinin artırılması məqsədilə yenidənqurma həyata keçirirsə, həmin məqsədlər üçün alınmış avadanlıqların dəyərinin 100%-i gəlirdən çıxıla bilər. Müəssisə fəaliyyətində yeni avadanlıq və ya digər inkişaf etmiş texnologiya tətbiq edərək yeni növ xammal və ya digər materiallar istehsal edirsə, müvafiq regional hakimiyyət orqanları ilə bağlanan müqaviləyə əsasən, 1-5 il müddətinə vergi güzəşti tətbiq edilə bilər.

Xüsusi İqtisadi Zonalarda fəaliyyət göstərən müəssisələr amortizasiyanı normadan 2 dəfə artıq hesablaya bilərlər. İxrac yönümlü informasiya texnologiyaları məhsulları istehsalı üzrə ixtisaslaşmış müəssisələr kompüter texnologiyalarına çəkdikləri xərcləri aldıqları ildə birbaşa balansdan silə bilərlər.

**Davamı növbəti sayımızda**

krossvord



**Yuxarıdan aşağı:**

1.Gürcü xörəyi; 2.Mərakeşin paytaxtı; 3.Rusiya Federasiyasında şəhər; 4.XIX əsrdə yaşamış böyük Azərbaycan şairi; 5.Armud növü, spirtsiz içki; 6.İdman avtomobili markası; 7.Bir sıra ispan və portuqaldilli ölkələrdə xırda pul vahidi; 12.İran şairi Əbülqasım Firdovsinin məşhur əsəri; 13.ADİDAS şirkətinin təsisçisinin soyadı; 15.Cənubi Amerikada çay. Əsasən Venesueladan keçir və Atlantik okeanına tökülür; 16.Çətin, mürəkkəb tapşırıqların həllini tapan və sevincini bildirən Arximed tərəfindən səslənən kəlam; 18.Tacikistanın paytaxtından 70 km cənub-şərqdə yerləşən şəhər; 20.Çoxkomponentli partlayıcı maddə; 21.Yeraltı yol və ya keçid.

**Soldan sağa:**

1.Orta Şərqdə tarixi vilayət; 5.Yazıda istifadə olunan işarə; 8.«Gözəlçə» filminin baş qəhrəmanını oynayan aktrisanın soyadı; 9.N.Gəncəvinin baş qəhrəmanlarından biri; 10.Səkkiz nəfərdən ibarət musiqi qrupu; 11.«Həm ziyarət, həm ticarət» filminin qəhrəmanının adı; 12.Unikal, təkrarolunmaz bədii əsər; 14.Stolüstü oyun; 17.«Kür» Olimpiya Avarçəkmə Bazasının yaradıcısı və akademik avarçəkmə üzrə əməkdar məşqçinin soyadı (1923-2002); 19.Rusiyanın Sverdlovsk vilayətində şəhər; 24.Avstriyalı psixoloq, psixiatr və mütəffəkkirin soyadı (1870-1937); 25.Dienlər sinfindən olan doymamış karbohidrogen. Polimerizasiyası nəticəsində kauçuk əmələ gəlir; 26.Kəlbəcər rayonunda kənd; 27.İsa peyğəmbərin davamçıları, həvarilər.

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Badam; 2.Romeo; 3.«Ayna»; 4.Diodor; 5.Kəşf; 6.Arktika; 7.Borçalı; 13.İsa; 14.Naz; 15.Salavat; 16.Rotokas; 18.Peşkov; 22.Areal; 23.Kaspi; 24.Anna *(Kurnikova)*; 25.Reyv.

**Soldan sağa:** 1.Bernard *(Şou)*; 5.Krabb; 8.Dominqo *(Plasido)*; 9.Aşıq Şakir *(Hacıyev)*; 10.Mioz; 11.Boz; 12.Çita; 15.Sarısu; 17.Qazağı; 19.Loto; 20.Ley; 21.Dark *(Janna)*; 26.Vakin; 27.Klemens; 28.Tesla *(Nikola)*; 29.Vivaldi.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Hüseyn Cavid pr., 81

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 14000

idman

# Sərbəst güləş üzrə beynəlxalq turnir başa çatıb

*Yanvarın 18-də Bakıdakı «Sərhədçi» İdman Olimpiya Mərkəzində Müşfiq İsayevin xatirəsinə həsr olunmuş yeniyetmələr arasında sərbəst güləş üzrə 17-ci Beynəlxalq turnirə yekun vurulmuşdur.*

Turnir 20 Yanvar şəhidi Müşfiq İsayevin xatirəsini yad etmək, yeniyetmə güləşçilərin idman ustalığını artırmaq, sərbəst güləşin inkişafına və kütləviliyinə nail olmaq məqsədilə keçirilmişdir. Beynəlxalq Güləş Federasiyasının (FİLA) mövcud qaydalarına əsasən təşkil olunmuş yarışda Azərbaycan pəhləvanları ilə yanaşı, Rusiya, Gürcüstan, İran, Qazaxıstan və Özbəkistandan olan güləşçilər də mübarizə aparmışlar.

Maraqlı idman mübarizəsi şəraitində keçən yarışda Əmir Parsteh (42 kq, İran), Afşin Rəhmarirkə (46 kq, İran), Fazil Həsənov (50 kq, Azərbaycan), Əfqan Xasalov (54 kq, Azərbaycan), Mahir Əmiraslanov (58 kq, Azərbaycan), Teymur Məmmədov (63 kq, Azərbaycan), Fuad Məmmədov (69 kq, Azərbaycan), Yeskali Dauletkazi (76 kq, Qazaxıstan), Əli Nikzad (85 kq, İran), Qivi Maçaraşvili ( 100 kq, Gürcüstan) fəxri kürsünün ən yüksək pilləsinə qalxmışlar.

Turnirdə müvafiq çəki dərəcələri üzrə ilk üç yeri tutmuş idmançılar diplom, medal və pul mükafatı ilə təltif edilmişlər. Azərbaycan ümumi komanda hesabında turnirdə 89 medalla birinci olmuşdur.



# «Baku Fires» «Astana Arlans» komandasını məğlub edib

**Azərbaycanın «Baku Fires» boks komandası Ümumdünya Boks Seriyası (WSB) Liqasında növbəti ev qarşılaşmasını inamlı qələbə ilə başa vurmuşdur.**



Komandamız Quba Olimpiya Kompleksində böyük azarkeş dəstəyi ilə keçirdiyi qarşılaşmada liqanın son qalibi olmuş Qazaxıstanın «Astana Arlans» kollektivini 4:1 hesabı ilə məğlub etmişdir. İlk döyüşdə komandamızın üzvü, Avropa çempionatlarının mükafatçısı Elvin Məmişzadə (52 kq) Asiya oyunlarının finalçısı, London Olimpiadasının iştirakçısı İlyas Süleymanova qalib gəlmişdir. Ardınca 60 kq çəki dərəcəsində dünya və Avropa çempionu Albert Səlimov WSB-nin ən təcrübəli boksçularından olan Samat Başenova heç bir şans verməmişdir. Üçüncü döyüşdə də «Baku Fires»in üzvü qalib gəlmişdir. Komandamızın üzvü Yevgeni Romaşkeviç (69 kq) gərgin keçən qarşılaşmada Meirim Nursultanovu məğlub etmişdir. Lakin 81 kq çəki dərəcəsində yarışan boksçumuz Samir Məmmədov qələbə seriyasını davam etdirə bilməmiş, «Astana Arlans» klubunun iranlı legioneri Ehsan Rouzbahaniyə uduzmuşdur. Son döyüşdə super ağır çəki dərəcəsində (91+) yarışan idmançımız Hacı Murtuzəliyev təcrübəli rəqibi Ruslan Mırsatayevi məğlub etmişdir.

Beləliklə, «Baku Fires» boks komandası Qazaxıstanın «Astana Arlans» kollektivinə 4:1 hesabı ilə qalib gələrək azərbaycanlı boks həvəskarlarını sevindirmişdir.

# «Synergy Baku» yeni mövsümə dünya brendi ilə start verir

*Azərbaycanın ilk peşəkar velosiped komandası «Synergy Baku»nun 2014-cü ildə əməkdaşlıq edəcəyi brendin adı məlumdur. Əldə olunmuş razılığa əsasən, komandamızın üzvləri bu il ABŞ-ın məşhur «Fuji» kompaniyasının «SST 1.1» tipli velosipedlərindən istifadə edəcəklər.*

«Synergy Baku» komandası ilə əməkdaşlıq etməkdən çox məmnunuq», - deyə «Fuji»nin meneceri Miley Gelvez bildirib. Onun sözlərinə görə, uzun illər Qərbi Avropa komandaları ilə əməkdaşlıq edən şirkət indi Asiyadan Avstraliyaya qədər olan bir coğrafiyanı əhatə edir. «Synergy Baku» isə şirkət üçün açılan yeni bir səhifədir.

«Fuji SST» peşəkar velosipedçi üçün əla seçimdir. Modelin adı «Super Stiff Team» - «Super möhkəm komanda» anlamına gəlir ki, bu da sprinterə yarış zamanı özünü tam rahat hiss etməyə imkan verir.

«Fuji SST» «Giro d»Italia», «Vuelta» kimi çoxgünlük veloyürüşlərdə sınaqdan çıxmış bir modeldir. Bu üzdən də «Synergy Baku»nun velosipedlərimizdən istifadə etməsi bizi çox fərəhləndirir», - Miley Gelvez bildirib.

mozaika

maraqlı

# Geriyə dönüşü olmayan səfər



Yer kürəsinin dörd sakini 2023-cü ildə bir daha geri qayıtmamaq şərti ilə Marsa uçacaq. Nobel mükafatı laureatı fizik Cerardüst Hooftun rəhbəri olduğu «MarsOne» layihəsi çərçivəsində Marsa göndəriləcək iki qadın və iki kişi bu planetdə insan düşərgəsinin yaradılması istiqamətində ilk addımlar atacaq.

AzərTAc «TRT Haber» telekanalına istinadla xəbər verir ki, ötən ilin aprel ayından başlayaraq müxtəlif ölkələrdən 200 min nəfər Marsa getmək üçün namizədliyini irəli sürmüşdür. Geriyə dönüşü olmayan bu səfərə könüllü surətdə yollanmaq istəyənlərin seçimi aparılmış və ikinci tura yalnız 1058 nəfər qalmışdır. Marsa uçacaq dörd nəfər həmin namizədlərin arasından seçiləcəkdir. Onların sırasında 6 türk də vardır və onların yalnız 3-ü adının açıqlanmasına razılır vermişdir: Doktar Gülər Ergün, Yasemin Higgins və Ece Kabadayı. Telekanalın məlumatına görə, Marsa gedən insanlar özləri ilə su ehtiyatı götürsələr də, sonradan suyun Mars torpağından çıxarılması nəzərdə tutulur. Ərzaq da eyni qayda üzrə Marsda yetişdiriləcəkdir. Layihənin əsas hədəfləri arasında nəsilartırma da vardır. Lakin planetdə cazibə qüvvəsinin aşağı olması səbəbindən hamiləliyin nə ilə nəticələnəcəyi bilinmədiyi üçün ilk vaxtlar doğuşa icazə verilməyəcəkdir.

texnologiya

# «Əjdaha» motosiklet

«Ginnesin rekordlar kitabı»nın nümayəndələri rəsmən dünyanın ən böyük motosikletin adını qeyd etmişlər: bu, Fabio Reggianinin istehsalı olan «Regio Design XXL Chopper» motosikletidir. Nəhəng nəqliyyat vasitəsinin uzunluğu 9,8 metr, hündürlüyü 4,9 metr, eni 2,5 metr, çəkisi 5 tondan çoxdur.

Onun 5,7 litrlik 8 silindrli mühərrikinin gücü 280 at gücünə bərabərdir. Model 2 təkər üstündə sərbəst dura bilmədiyindən arxaya əlavə təkər cütü artırılmışdır. Motosikletin yığılması 7 ay çəkmişdir.



cəmiyyət

# Amerika konqresmenlərinin yarısı milyonçudur



AzərTAc-ın yaydığı məlumata görə, ABŞ Konqresi Senatının və Nümayəndələr Palatasının 534 üzvündən 268-nin hər birinin malik olduğu aktivlərin məbləği bir milyon dollardan artıqdır. Belə vəziyyət ABŞ tarixində ilk dəfə qeydə alınmışdır.

«Məsul Siyasət Mərkəzi» adlı ictimai təşkilat 2012-ci il üçün açıqlanmış əmlak bəyannamələri barədə məlumatı OpenSecrets.org saytında dərc etmişdir.

Ölkədəki iki aparıcı partiyanın nümayəndələrinin maddi təminat səviyyəsi təxminən eynidir. Demokrat konqresmenin əmlakının məbləği orta hesabla 1,04 milyon dollara, respublikaçı konqresmenin əmlakının orta dəyəri isə düz bir milyon dollara bərabərdir. Senatorlar aşağı palatadan olan həmkarları ilə müqayisədə xeyli varlıdırlar: 896 min dollara qarşı 2,7 milyon dollar.

Ən təminatlı konqresmen - Respublikaçılar Partiyasının üzvü Darrell İssa Nümayəndələr Palatasında Kaliforniya ştatını təmsil edir. İssa maşınların qaçırılmasına qarşı mübarizə sistemləri alveri hesabına 598 milyon dollar gəlir əldə etmişdir. Ən yoxsul konqresmen isə Respublikaçılar Partiyasının digər üzvü, Kaliforniyadan olan Devid Valadaodur. O da Konqresin aşağı palatasının üzvüdür. Valadaonun ailəsinə məxsus süd fermasının 12 milyon dollardan artıq borcu vardır.

Məsul Siyasət Mərkəzinin direktoru Şeyla Krumhols Frans-Press agentliyinə müsahibəsində demişdir: «Bizim vətəndaşlar Vaşinqtonda onların mənafelərinin təmsil olunmasını təminatlı insanlara etibar edirlər. Bu meyil dəyişməz qalır». Mərkəzin direktoru qeyd etmişdir ki, maliyyə vəziyyətinin yaxşı olması seçkiqabağı kampaniyaların uğurla aparılması üçün də zəruri şərtdir. Bununla bərabər, hazırda Konqresə siyasi təsisat kimi etimad səviyyəsi sosioloji araşdırmalar tarixində ən aşağı göstəricilərdən birinə bərabərdir. Qanunvericilərin şəxsi sərvətləri barədə məlumatların Məsul Siyasət Mərkəzi tərəfindən dərc edilməsi Konqresdə minimum əməkhaqqının və işsizliyə görə müavinətlərin məbləği barədə debatların davam etməsi ilə eyni vaxta təsadüf etmişdir.

Qeyd etmək lazımdır ki, bir tərəfdən amerikalıların gəlirinin artması, digər tərəfdən inflyasiya prosesləri ilə əlaqədar indiki vaxtda bir milyon dollar Morqan və Rokfeller dövründə olduğu qədər sanballı məbləğ sayılmır.

# Qeyri-adi qanunlar şəhəri

Norveçin Lonqyir şəhəri dünyanın ən şimal şəhəri hesab edilir. Ölkənin inzibati mərkəzi sayılan Svalbard əyalətinin ən böyük yaşayış məntəqəsi olan şəhər qışda, demək olar ki, ölü məkana çevrilir. Şəhərin qeyri-adi qanunları mövcuddur. Bunlardan biri də şəhər ərazisində ölməyin qadağan edilməsidir. Əgər kimsə ağır xəstəliyə yoluxubsa və ya öləcəksə, xəstə dərhal hava və su yolu ilə Norveçin digər hissəsinə göndərilməlidir. Hətta ölüm hadisəsi şəhərdə olsa belə, mərhumu şəhərdən kənara çıxarırlar. Bunun əsas səbəbi kimi isə ölən adamın soyuq şimal şəraitində tamamilə çürüməməsi və nəticədə ağ ayı kimi yırtıcıların şəhərə doğru diqqətinin artması göstərilir.

Ümumiyyətlə, bu yerlər ayıların məskəni hesab edilir. Buna görə də yerli universitetdə dərslərin ilk günlərində tələbələrə atıcılıq öyrədilir.




ELAN

**«Vergilər» qəzetinə 2014-cü il üçün abunə kampaniyası davam edir**

Azərbaycanın bütün şəhər və rayonlarında «Vergilər» qəzetinin illik abunə haqqı (çatdırılma xərcləri daxil olmaqla) **20 manat 80 qəpik** təşkil edir.
Qəzetimizə abunə yazılmaq üçün abunə haqqını redaksiyamızın aşağıda göstərilən bank hesabına köçürməyiniz xahiş olunur.

VÖEN: 1300327481; H/h AZ46ATAZ01200012258000138090; «Atabank» ASC; Kod:507581
VÖEN: 9900006651; M/h: AZ50NABZ01350100000000032944; SWIFT: BIK ATAZAZ22


Müdriklər deyib ki...



***«İnsanın ali məqsədi – sevgi uğrunda ölmək deyil, uğrunda ölməyə layiq sevgini tapmaqdır».***

*Uilyam Şekspir (1564-1616)*